Таким образом, анатомические и функциональные изменения в матке и придатках, изменения в рецепторном аппарате, дисрегуляция центральной нервной системы приводят к сбою эндокринной регуляции половой сферы и являются причиной нарушения репродуктивной и менструальной функции [2,5,8,11].

Изменения менструальной функции у больных с острым или подострым сальпингоофоритом носят компенсаторный характер, что проявляется отсутствием клинических нарушений менструальной функции. У больных ХСО нарушение менструального цикла наблюдается довольно часто. По данным Савельевой Г.М. существование стойкого очага воспаления в малом тазу приводит к нарушению менструального цикла у 45 - 55 %, Занько С. Н. отметил нарушению менструального цикла в 51 %, Щукина Н.А. в 54,3% случаев. Нарушения менструального цикла проявлялись в виде мено- и метроррагий, олиго- и опсоменореи (опсоолигоменореи), дисменореи, аменореи у 21% пациенток. Самыми частыми жалобами у 80–90% пациенток с ХЭ являются межменструальные кровянистые выделения, меноррагии и дисменореи. Метроррагия на фоне ХЭ связана с повышением проницаемости сосудов эндометрия в период овуляции. По данным ряда авторов практически в 35% случаев у пациенток с нарушением менструальной функции на фоне ХЭ отмечается следующий симптомокомплекс: гиперполименорея, метроррагия, хронические тазовые боли. Клиника маточного кровотечения: боли внизу живота, болезненность тракций за шейку матки связаны с хроническим воспалением верхнего отдела внутренних половых органов. В связи с чем ХЭ возможно рассматривать в качестве маркера хронического воспалительного процесса верхнего отдела гениталий.

В некоторых исследованиях было высказано предположение о том, что нарушения ангиогенеза могут быть причиной маточного кровотечения у пациенток с хроническим воспалительным процессом внутренних половых органов. При этом преобладающее значение в ангиогенезе сосудов эндометрия принадлежит эстрогенам, сосудистому эндотелиальному фактору роста, интерлейкинам (ИЛ-1, ИЛ-6, ИЛ-8), фактору роста фибробластов.

Нарушение репродуктивной функции— одна из основных жалоб больных ХЭ. У больных с бесплодием частота ХЭ составляет в среднем 9,8% (от 7,8 до 15,4%). Среди женщин с верифицированным ХЭ в 60,4% случаев диагностируется бесплодие (в 24,8%— первичное бесплодие, в 35,6%— вторичное бесплодие), неудачные попытки ЭКО и переноса эмбрионов в анамнезе отмечены у 37% женщин.

В связи с вовлечением в патологический процесс эндокринной системы, рядом авторов был проведен анализ гормонального гомеостаза. У пациенток с ХСО при котором были выявлены следующие сдвиги: нарушения базальной и циклической секреции ЛГ и ФСГ, снижение уровня эстрадиола [2,7,8]. На основании исследования секреции половых гормонов при хроническом сальпингоофорите были установлены различные варианты нарушения гипофизарно-яичниковых взаимоотношений. В связи с нарушениями гипоталамо-гипофизарно-яичниковой регуляции у больных с хроническим сальпингоофоритом наблюдаются как двухфазные, так и ановуляторные менструальные циклы, персистенция фолликула.

При исследовании гормонального фона у пациенток с гнойно-воспалительными изменениями придатков было выявлено нарушение гипоталамо-гипофизарно-яичниковой регуляции. Наблюдается снижение в несколько раз уровня эстрадиола и прогестерона. Повышение секреции гонадотропных гормонов расценивается как компенсаторное на сниженное содержание половых гормонов. Такая картина гормонального фона наблюдалась у пациенток с деструкцией яичниковой ткани, выявленная при патоморфологическом исследовании (вплоть до тотального гнойного повреждения) [2,6,13,16].

При длительном течении заболевания данные изменения могут носить необратимый характер, поэтому в работах последних лет все чаще упоминается целесообразность назначения гормональных и других средств корригирующих менструальную функцию в комплексное лечение [1,5,10,16]. Лечебные мероприятия, направлены на восстановление морфофункционального потенциала ткани эндометрия. Такой подход сориентирован не только на устранение причин, вызвавших воспалительный процесс, но и на ликвидацию его последствий, включающих устранение вторичных повреждений, ишемии ткани, восстановление локальной гемодинамики, рецепторного аппарата эндометрия. В отношении необходимости проведения антибиотикотерапии существуют различные точки зрения.

У женщин с нарушениями репродуктивной функции обязательным элементом в комплексном лечении хронического эндометрита, кроме описанной выше этиотропной, является терапия, направленная на улучшение метаболических процессов в эндометрии и восстановление его рецептивности. Эта комплекс предполагает использование фазовой гормонотерапии и метаболитов. Проведение комплексного лечения позволяет достоверно увеличить вероятность имплантации.

Наиболее рациональным методом лечения гнойных воспалительных заболеваний придатков матки является хирургический [1,6,10,15]. В зависимости от объема операции в последующем необходимо либо восстановление функции сохраненных органов после органосберегающих операций, либо замещение утраченной гормональной функции яичника при выполнении радикальных операций.

Исследование рецепторного статуса у больных с острыми и хроническими формами гнойного воспаления дало бы более полное представление о механизме действия половых стероидов при воспалительном процессе и позволило бы расширить поиск новых методов терапии, способствующих улучшению качества жизни женщин.

ЛИТЕРАТУРА

1. Белобородова Н.В. Поиск методов и обьективных критериев оптимизации антимикробной терапии гнойно-восполительных заболеваний // Вестник российской академии медицинских наук. 2003, №9, с.10-18.

2. Ворона И.Г., Бергман А.С. Гормональный гомеостаз у больных неспецифическим сальпингоофоритом. Рига: Зинате,1990, с. 119.

3. Евсеев А.А., Богинская Л.Н., Протопопова Л.О., Затонских Л.В., Краснова И.А. Современные принципы диагностики и лечения острых воспалительных заболеваний придатков матки // Ж. Акушерство и Гинекология. 2003, № 2, с.32-36

4. Железнов Б.И. Морфологический аспект острого воспаления придатков матки у женщин репродуктивного возраста //Акуш. и гинек. 1990, №6, с.65-70.

5. Кира Е.Ф., Новиков Е.И., Беженарь В.Ф., Рухляда Н.Н. Опыт лечения гнойно-воспалительных заболеваний матки и придатков у женщин репродуктивного возраста // Рос. Вест. Акуш.- Гинеколога. 2002, № 1, с.38-40.=

6. Краснопольский В. И., Буянова С.Н., Щукина Н.А. Гнойная гинекология (практическое руководство). М.: Медпресс, 2001, с.282.

7. Манухин И.Б., Тумилович Л.Г., Геворкян М.А. Клинические лекции по гинекологической эндокринологии. М., 2001, с. 247.

8. Савельева И.С. Инфекционно – воспалительные поражения женских половых органов и дисменорея. Современные аспекты этиопатогенеза, диагностики и лечения хронических воспалительных заболеваний внутренних половых органов // Русский Медицинский Журнал, 1999, №3, с.1-14

9. Тихомиров А.Л., Юдаев В.Н., Лубнин Д.М. Современный алгоритм терапии воспалительных заболеваний половой системы //Русский мдицинский журнал, 2003, № 173, с.12-17.

10. Шатунова Е.П. Клинические и патогенетические аспекты воспалительных заболеваний придатков матки. Самара, 2002, с.112

11. Catherine L., Roberta B. Endometritis does not predict reproductive morbidity after pelvic inflammatory disease // American Journal of Obstetrics and Gynecology, 2003, v.188, p.141-148

12. Hoof K. Pelvic inflammatory disease // J. Ther Umsch., 2007, v.64(7), p.365-8
13. Janet D. Wilson, Susan G. Ralph. Rates of bacterial vaginosis in women undergoing in vitro fertilisation for different types of infertility • ARTICLE BJOG // An International Journal of Obstetrics and Gynecology, 2002, v.109, p.714-717.
14. Pavletic A.J., Wolner-Hanssen P., Paavonen J. et al Infertility following pelvic inflammatory disease // Infect. Dis. Obstet. Gynecol., 1999, v.7 (3), p.145-52.
15. Roberta B., David E., Robert L. Effectiveness of inpatient and outpatient treatment strategies for women with pelvic inflammatory disease: sults from the pelvic inflammatory disease valuation and clinical health randomized trial // American Journal of Obstetrics and Gynecology, 2002, v.186, p.929-937.
16. Smith G. Effectiveness of treatment strategies of some women with pelvic inflammatory disease: a randomized trial. // J. Obstet. Gynecol., 2005, v.106(3), p.573-80.

SUMMARY

URGENCY OF EARLY DIAGNOSTICS OF A SMALL PELVIS ORGANS INFLAMMATORY DISEASE IN A CHOICE OF A TREATMENT METHOD

S.S.Safarova

In article data of the modern literature devoted to inflammatory diseases of the small pelvis organs are used. The mechanism of development of complications of inflammatory process, criteria of diagnostics, and as a modern sight at their treatment is described.

Daxil olub:06.04.2010

POTENSİAL PATOGEN AKTİNOMİSETLƏRİN TƏDQİQİ

N.A. Ağayeva
Azərbaycan tibb universiteti, Bakı

Aktinomisetlər bütün təbii substratlarda (torpaq, hava, bitki, su) çox geniş yayılmış mikroorqanizmlərdir [4]. Təbiətdə bu orqanizmlərin saprofit kökləri üstünlük təşkil etsə də, patogen formalarına da rast gəlinir. Patogen formalar insan orqanizminə müəyyən yollarla düşərək müxtəlif patoloji proseslərin yaranmasına səbəb olurlar. Bu baxımdan saprofit formalarla yanaşı, aktinomisetlərin aatogen formalarının tədqiqi böyük tibbi-sosial əhəmiyyət kəsb edir.

Aktinomisetlərin canlı varlıqlar sırasında yerini müəyyən etmək üçün uzun illər boyu çoxsaylı tədqiqatların aparılması lazım olunmuşdur [10,11,14]. Bununla belə, aktinomisetlərin yüz ildən artıq öyrənilməsinə baxmayaraq, hələ də onların bəzi xüsusiyyətləri ətraflı tədqiq olunmamışdır.

Bakteriyalardan fərqli olaraq, onlar yüksək bioloji və biokimyəvi fəallığa malkidirlər. Onlar qüvvətli ferment sisteminə, fəal çoxalma qabiliyyətinə, güclü antaqonist qabiliyyətinə malikdirlər. Belə qabiliyyəti olan təbii substratlarda üstünlük təşkil edən Act.griseus, Act.albus, Act.qlaucus və s. misal göstərmək olar. Lakin bunlarla yanaşı, təbii substratlarda çoxlu patogen formalar da üstünlük təşkil edir və müəyyən yollarla insan orqanizminə düşərək, sonradan müəyyən səbəblərdən patoloji prosesin yaranmasına səbəb olurlar.

Bu baxımdan son on illikdə aktinomisetlərin ayrı-ayrı qruplarının ekologiyası, morfo-bioloji və digər xüsusiyyətlərinin öyrənilməsi və onların insan patologiyasındakı rolunun müəyyənləşdirilməsi baxımından aparılmış tədqiqatlarda aktinomisetlərə göstərilən maraq da diqqəti çox cəlb edir [10,11].

Aktinomisetlərin öyrənilməsinə XIX əsrin axırlarında başlanılmış və onun patogen növləri diqqəti cəlb etmişdir. Şüalı göbələklər barədə təlimin əsasını qoyan F.Konn olmuşdur. O, Foster tərəfindən insanın göz yaşı kanalından izolə etdiyi mikroorqanizmi tədqiq edib, onu Streptothrix forsteri növü adlandırmışdır. Belə bir mikroorqanizmi 1877-ci ildə M.Qars (2) qaramalın iltihab baş vermiş qranulyar toxumasından almış, identifikasiya etmiş və onu Act.bovis adlandırmışdır.

O.İzrael ilk aktinomiset kulturasını aktinomikozlu xəstənin toxumasından alınmış patoloji materialı qidalı mühitdə kultivasiya etməklə öyrənmişdir. Sonralar 1891-ci ildə M.Volf və O.İzrael belə bir mikroorqanizmi aktinomikozlu insanın iltihablı düyünündən izolə etmişlər və onu Actinomyces hominis adlandırmışlar.

Aktinomisetlərin öyrənilməsi sahəsində aparılan tədqiqatlar getdikcə genişlənmiş və M.Nokard zədələnmiş insan toxumalarından 1888-ci ildə miseliləri arakəsməsiz olan və qidalı mühitdə aerob şəraitdə kultivasiya olunan aktinomiseti əldə etmiş, onu Vasille defarcine

adlandırmışdır. V.Trevizan isə həmin kulturanı ətraflı öyrənib, onu yeni cinsə – Nocardia cinsinə aid edir və sonradan onun 2 növünün təsvirini vermişdir.

Sonralar belə aktinomisetlər daha çoxlu miqdarda xəstə insan və heyvan orqanizmlərindən alınmış və getdikcə öyrənilən aktinomisetlər arasında müxtəlif formalı, çeşidli əlamətləri ilə səciyyələnən termofillər, mezofillər, aeroblar, anaeroblar olduğu müəyyən olunmuşdur.

Müxtəlif torpaq tiplərinin aktinomisetlərin təbiətdə yayılmasına, ekologiyasına, növ tərkibinə, biologiyasına, fizioloji-biokimyəvi, antibakterial, ekoloji-coğrafi xüsusiyyətlərinə təsirinin mühüm olması da müəyyənləşdirilmişdir [12,18].

Müxtəlif regionlardan toplanan nümunələrin təhlili göstərir ki, aktinomisetlər mikroorqanizmlərin ümumi miqdarının 19,7-46%-ni təşkil edir. Aktinomisetlər bütün substratlarda – havada, şirin və duzlu su hövzələrində, dənizlərdə, göllərdə, bitkilərin rizosfer və epifit hissəsində, əsasən də müxtəlif torpaq tiplərində geniş yayılmışdır. Onların müxtəlif ekoloji şəraitdə çoxsaylı termofil, mezofil, asidofil, obliqat halofil, aerob, anaerob, azot fiksə edən və b. formaları aşkar olunmuşdur.

Aktinomisetlərin saprofit nümayəndələri ilə yanaşı onların bir çox patogen növlərinin olması da müəyyən edilmişdir. Bunların sırasında Actinomyces, Sacchapolyspora, Sacchamonospora, Micromonospora, Streptomyces, Nocordia, Termomonospora, Actinomodura cinslərinin patogen nümayəndələrinin təbiətdə – ot tayalarında, buğdada, şəkər çuğundurunda, kartofda və digər bitkilərin üzərində, torpaqlarda, sularda, komposda və . geniş yayılması öyrənilmişdir.

Artıq məlumdur ki, aktinomisetlərin bəzi növləri insanlarda, heyvanlarda və bitkilərdə bir sıra xəstəliklərin törədicisidir. Aktinomikoz adlanan xəstəliklərə dünyanın bütün bölgələrində rast gəlinir. O, məlum xroniki irinli proseslərin 2,5-10%-ni təşkil edir. Aktinomisetlərin insanlarda xəstəlik törətməsi, bir sıra hallarda orqanizmdə dəri və selikli qişaların tamlığının pozulması, bu orqanizmlərin toxumanın daha dərin hissələrinə daxil olması, irinli iltihabi proseslərin, xroniki travmaların, immunodefisit vəziyyətdə əlaqəli autoinfeksiyalar və s. ilə əlaqədardır [15]. Bütün bu göstərilənlər apardığımız tədqiqatlarda öz əksini taparaq, bir daha təsdiqlənmişdir. Xüsusilə yerli immun amillərin (sİgA) rolu və digər mikroorqanizmlərin bu prosesə qoşulması aktinomikotik zədələnmələrə səbəb olan əsas amillərdəndir [8].

Aktinomikoz xroniki və yarımkəskin qranulomatoz xəstəlik olub, adətən irinləmə və absesin formalaşması ilə, eləcə də sviş əmələgəlmə tendensiyası ilə keçir. Xəstəlik heyvan və insanlarda rast gəlinir. Klassik patogen Act.bovis və Act.israelii-dən başqa, digər fermentativ cəhətdən fərqlənən növlər tərəfindən də törədilir [1]. Aktinomiset növlərindən Act.israelii, Act.bovis, Act.albus, Act.globisporius və b. insan orqanizminin müxtəlif orqan və sistemlərində (boyun-üz, ağız boşluğu, torakal, abdominal, sidik-cinsiyyət, mərkəzi sinir sistemi, dəri və s.) spesifik irinli-iltihabi patoloji proseslərin – aktinomikozların əmələ gəlməsinə səbəb olur.

Beləliklə, aktinomikoz sindromu ayrıca bir patogen mikroorqanizmə aid olan sadə bir xəstəlik olmayıb, polietioloji iltihabi sindrom hesab oluna bilər (16). Bütün bunlar bizim tədqiqatlarda da bir daha sübut olunmuşdur. Belə ki, müxtəlif ağız boşluğu, üz-çənə, yuxarı tənəffüs yolları xəstəliklərində aktinomisetlərin bir çox növlərinin iştirakı mikrobioloji analizlər sayəsində sübut edilmişdir [9].

İlkin boyun-üz aktinomikotik zədələnmə kəskin, ən çox odontogen abses və ya çox kəskin pannikuliti, eləcə də ləng formalaşan bərk qırmızıtıl və ya solğun iltihabi infiltratı xatırladır [9].

Nəzərə alsaq ki, xroniki infiltrat adətən ağrısız, kəskin forma ilə ağrılı olur və bu da çənəaltı – körpücük oynağa yaxın yerdə formalaşarsa, onda çeynəmə əzələlərinin əsməsinə gətirib çıxarır.

Kəskin xəstəliyin ilkin stadiyası absesin formalaşması və ya xroniki gedişli toxuma proliferasiyası və çoxlu sayda xırda abseslərin əmələ gəlməsilə keçir. Prosesin inkişafı nəticəsində mərkəzdən kənara doğru çapıqlaşma əmələ gəlir ki, bura da çoxlu irinli ocaqlar və ya çoxlu sviş yollarının açılması baş verir [17].

Xəstəliyin insanlarda rast gəlinən formalarından nisbətən az hissəsi nəinki selikli qişanın adi defekti ilə yanaşı toxuma invaziyasının olması ilə əlaqədardır, bu şərait mikrobun daxil olduğu yerdə toxumanın zədələnməsindən asılıdır. Bu mənada sahibin toxumalarında mənfi oksidləşdirici-bərpaedici potensialın olması patogen aktinomisetlər, həm də digər iştirak edən bakteriyaların inkişafı üçün şərait yaradır. Yerli oksigen potensialının belə azalması qan hərəkətinin pozulması və nəticədə elə qan dövranının ümumi pozğunluğu və ya travmatik

zədələnmə nəticəsində damar xəstəliklərinin, yad cismin düşməsi ilə keçən toxuma didilməsi, eləcə də digər mikroorqanizmlərin iştirakı ilə əlaqədar olaraq nekrotik xüsusiyyətin yaranmasının baş verməsi ilə əlaqədardır.

Ədəbiyyatda kənd təsərrüfatı ilə məşğul olan insanlarda aktinomisetlər tərəfindən törədilən «fermer ağ ciyərləri» adlanan xəstəliyin də geniş yayılması məlumdur. Göstərilən xəstəlik başlıca olaraq xroniki xarakterli olur, əsasən də imun zəifliyi olan insanlarda rast gəlinir, ciddi əlilliklər, bəzən isə fatal nəticələrə səbəb olur. Oxşar xəstəliklər heyvanlarda da geniş yayılmışdır.

Son illərdə qadınlarda uşaqlığın ginekoloji xroniki iltihabi xəstəliklərində aktinomisetlər xüsusi yer tutur. Actinomyces, Streptomyces və Nocardia cinslərinin nümayəndələrinə daha çox təsadüf olunur [15].

Bəzi termofil aktinomiset Micromonospora, Termomonospora sporlarının insanlarda kəskin allergik alveolitlərin və respirator invaziv xəstəliklərin əmələ gəlməsinə səbəb olur [3].

Respublikamızın müxtəlif rayonlarının torpaqlarında aktinomisetlərin saprofit nümayəndələrinin əsasən yayılma dinamikası, qrup tərkibi və bəzi xüsusiyyətləri barədə məlumat olsa da [2,7,13,15], müxtəlif ekoloji şəraitdən, torpaq, bitki, ot tayaları, eyni zamanda sağlam və xəstə insanlardan alınmış aktinomisetlərin morfo-bioloji, patogenlik xüsusiyyətlərinin tədqiq edilməsi probleminə toxunulmamış, invaziv patoloji proseslərdə rolu ümumiyyətlə araşdırılmamışdır. Bir sıra inkişaf etmiş ölkələrdə bu problemlə bağlı tədqiqatlar aparılmışdır. Alınan nəticələrin təhlili göstərir ki, aktinomisetlərin bir sıra xəstəliklərdə etioloji rolu sübuta yetirilsə də, müəyyən məsələlər (müxtəlif etioloji şəraitdən patogen formaların təsdiqi, xəstəliyin yoluxma yollarının və patogenliyinin dəqiq araşdırılması, xəstəliyin inkişafı və yayılmasında orqanizmin immun statusunun rolu, peşə şəraiti və faktorlarının, yerli xüsusiyyətlərin əhəmiyyətinin aydınlaşdırılması, ümumiyyətlə aktinomisetlərlə bağlı problemlərin tibbi-sosial əhəmiyyəti və s.) hələ də tam öyrənilməmişdir. Azərbaycan şəraitində müxtəlif təbii və iqlim, ekoloji-coğrafi, sosial faktorlarla əlaqədar aktinomisetlərin yayılma dinamikası və aktinomikoz xəstəliklərinin öyrənilməsi, çoxsaylı aktinomiset növlərinin bioloji xarakteristikası aktual məsələ olaraq qalır. Məhz bu problemlər onların araşdırılmasını qarşıya qoyur və bu istiqamətə yönəlmiş elmi tədqiqat işlərinin aktuallığını daha da artırır. Bütün bunlar bir çox məsələlərin aydınlaşdırılmasına və ziddiyyətlərin aradan qaldırılmasına təkan verəcək əsas amillərdir. Göstərilənlərə əsasən Azərbaycanda ilk dəfə bu problemə müraciət edilməsi bizim tədqiqatlarda lazım bilinmiş və bir sıra maraqlı nəticələr əldə edilmişdir [15,16]. Belə ki, Respublikamızda aktinomiset mənşəli xəstəliklərə çox rast gəlinir və belə xəstəliklər əsasən gənc, orta yaşlı və xüsusilə kənd təsərrüfatı sahəsində çalışan insanlarda rast gəlinir. Belə ki, bir sıra ağız boşluğu (qinqivit, parodontit, fleqmona, abses), üz-çənə (üz-çənə aktinomikozu), yuxarı tənəffüs yolları (xroniki tonzillit) infeksiyalarında aktinomisetlərin bir sıra növləri patensial patogenlik nümayiş etdirir. Belə növlərə Act.viscosus, Act.odontolyticus, Act.israelii və s. misal göstərmək olar [7,15,8].

ƏDƏBİYYAT

1. Ağayeva N.A. Üz-çənə aktinomikozunun əmələ gəlməsində sİgA-nın rolu / Əziz Əliyevin 110-illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2007, s.22-24
2. Ağayeva N.A. Act.griseus və Actinomyces sp-nin şəkərlərdə əmələ gətirdiyi biokütlənin təyini / Ümumi gigiyena və ekologiya kafed. 80-illik yubileyinə həsr ol. elmi məcmuə. Bakı, 2002, s.57-60.
3. Ağayeva N.A. Dominant aktinomiset növlərinin sellülozanı parçalama qabiliyyəti / Azərbaycan Milli E/A. «Ekologiya və fəlsəfə, mədəniyyət» elmi məq. məcmuəsi. Bakı, 2002, s.246-248.
4. Qasımov H.S., Babayeva T.Ə., Əhmədova F.R. Bəzi termofil aktinomisetlərin funqistatik xüsusiyyətlərinin öyrənilməsi / «Elm XXI əsrin astanasında» mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, 1998, s.126-127.
5. Абушев Р.А. Влияние экологических факторов на развитие актиномицетов в условиях Азербайджана / Конференция микробиологов Закавказских Республик. Тбилиси, 1989, с.48.
6. Абушев Р.А. Влияние экологических факторов на развитие актиномицетов в условиях Азербайджана / Конференция микробиологов Закавказских Республик. Тбилиси, 1989, с.48.
7. Агаева Н.А. Влияние экологических факторов на видовой состав актиномицетов / Матер. XI Межд. Симп. «Нетрадиционное растениеводство. Этиология. Экология и здоровье». Крым,2002, с.70-73.
8. Агаева Н.А., Азизов Р.Ф., Караев З.О. Провоспалительные цитокины у больных с актиномикотическим поражением // Проблемы медицинской микологии, 2009, Т.10, №4, с. 21-24.

9. Агаева Н.А. Бактериальные ассоциации при актиномикотических поражениях у человека // Журнал инфекционной патологии, 2009, т.16, №1, с. 26-30.
10. Зенова Г.Н., Звягинцев Д.Г. Разнообразие актиномицетов в наземных экосистемах. М.:Изд. Московского Университета, 2002, с.130.
11. Звягинцев Д.Г., Зенова Г.М., Широких И.Г. Актиномицеты в пределах вертикальной структуры морфонобалотных биоценозов. Микробиология, 1993, т.62, №3, с. 548-550.
12. Зенова Г.М., Захарова О.С., Михайлова Н.В. Экологический статус актиномицетов. Почвоведение, 2001, №4, с.455-460.
13. Жданова Л.П. и др. Бактериальные ассоциации при челюстно-лицевом актиномикозе // Стоматология, 1990, №4, с.35-37.
14. Красильников Н.А. Определитель актиномицетов. М.: Изд. АН СССР, 1970.
15. Мирзабалева А.К. Актиномикоз половых органов у женщин // Проблемы медицинской микологии», 2002, т.2, №2, с.11-16.
16. Олейник И.И., Мельников В.Г. Роль актиномицетов в развитии патологических процессов в полости рта // Стоматология, 1990, №1, с.94-95.
17. Пестеров П.Н., Фурман О.А. Выявление больных актиномикозом челюстно-лицевой области // Стоматология, 1984, №5, с.45-46.
18. Рыбалкина А.В., Коненко Е.В. Активная микрофлора почв / Сб. Микрофлора почв Европейской части СССР. М.:Изд. АН СССР, 1991, с.240-249

SUMMARY

THE RESEARCHING OF POTENTIAL PATHOGEN ACTINOMYCETES

N.A.Agayeva

Actinomyces widely spreading environment, soil, water, plant, grass and etc. They can enter human organisms from these substrates by different ways and can live there as long as saprophyte bacterium. While depend on some conditions they become pathogenic and cause the occurring of some diseases. That is why in different substrates spreading of saprophyte and pathogenic actinomyces. Their getting and researching are ecologically, social and medically very important.

Daxil olub:23.04.2010

ƏTRAF MÜHİTİN EKOLOJİ VƏZİYYƏTİNİN REPRODUKTİV SAĞLAMLIĞA TƏSİRİNİN AKTUAL ASPEKTLƏRİ

N.M. Kamilova, I.A.Sultanova, S.N.Məmmədova

Azərbaycan tibb universiteti, Bakı

Sağlamlıq insanın ayrıca tərkib hissəsi deyildir
Lukresiy Tit Kir

İnsanın, eləcə də ümumi bir əhali qrupunun sağlamlığı təbiətin və sosial mühitin müxtəlif yarımsistemlərinin təsirindən asılıdır. İnsanın sağlamlığı böyük bir töhfə və onun xoşbəxtliyinin ayrılmaz tərkib hissəsidir. İnsan sağlam oluqda öz həyatını şəxsi planları əsasında qurur və bütün çətinliklərin öhdəsindən asanlıqla gəlir. İnsanın sağlamlığı istənilən ölkənin sosial- iqtisadi inkişafının əsas faktorudur. İnsanın sağlamlığı fundamental elmi, millətlərarası və dövlətlərarası kateqoriyadır [21,23,30].

Bununla yanaşı yaşayış mühitinin dəyişməsi tempinin artması onunla insan arasında qarşılıqlı əlaqənin pozulmasına, orqanizmin uyğunlaşma imkanlarının azalmasına səbəb olur. Yaşayış mühitində elə maddələr olur ki, təkamül prosesində orqanizm onunla rastlaşmamış olsun və buna görə də onların mövcud olduğu xəbər verən uyğun analizator sisteminə malik olmur. Canlı orqanizm- bizim Yerin əsas varidatıdır, insan cəmiyyəti onun tərkibində inkişaf etmiş və onun hesabına mövcud olmuşdur. O bizim qida tələbatımızı ödəyir, planetdə insaların yaşaması üçün əsas şəraiti təmin edir- hava mühitinin tərkibi, kosmik şüalanmadan qorunma, təmiz su, məhsuldar torpaq, iqlimin mülayimliyi. Nəticə etibarilə bizim ona olan münasibətdən hər birimizin həyatı, bəşəriyyətin gələcəyi asılıdır. İnsanın həyat fəaliyyəti, elmin və teznikanın inkişafı nəticəsində atmosferə daxil olan, su hövzələrini cirkləndirən, Yerin özülü və köklərinə daxil olan kimyəvi birləşmələrin sayı və həcmi artır. Biosferdə dərin dəyişikliklər canlı orqanizmlərin təkamülünün tempinə nisbətən daha sürətlə baş verir. Ona görə də min illərlə formalaşan orqanizmin müdafiə funksiyalarının xarakter və səviyyəsinə uyğun olan canlı orqanizm və xaric mühit arasında qarşılıqlı təsir mexanizmində tarazsızlıq baş verə bilər. İnsanın istehsalat fəaliyyəti nəticəsində atmosferə 100 minə yaxın adda kimyəvi maddə buraxılır. Hər il əvvəllər məlum olmayan 60 mln ton sintetik material istehsal olunur, kənd təsərrüfatı sahələrinə böyük həcmdə mineral birləşmlər və pestisidlər buraxılır. İstehsalat suyunun buraxılması isə ən

ciddi problemlərdən biridir. Dünyada qeydə alınan bütün xəstəliklərin 25%- dən 33%-ə qədəri ÜST məlumatlarına əsasən birbaşa çirklənmiş ətraf mühit ilə bağlıdır, onların 3/2- ni uşaqlar təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə vaxtından əvvəl ölümün 18% halda səbəbi əlverişsiz ətraf mühitdir. Onarlan 7%- i su təchiatı və kanalizasiya; 4%-i ərazi daxilində havanın çirklənməsi; 3%- i ötürücülərin səbəb olduğu xəstəliklər; 2%-i şəhərlərdə havanın çirklənməsi; 1%- istehsalat və məişət tullantılarının mənfi təsiri [35,36]. Kritik ekoloji vəziyyət insanın qarşısına ekoloji təhlükəsizliyin təmin olunması üçün yüksək keyfiyyətli mexanizmin yaradılması vəzifəsini qoyur ki, bu da cəmiyyəti həm insanın, həm də təbiətin özünün xilas olunması üzrə aktiv tədbirlərin həyata keçirlməsinə məcbur etməyə imkan verir. 2010- cu il Azərbaycanda ekologjiya ili elan olunmuşdur. Sağlamlığının vəziyyətinin, onu təyin edən amillərin tədqiq olunması, demək olar ki, praktik təbabətin bütün sahələrinin aktual vəzifələrindən birinə çevrilmişdir. Hazırda «sağlamlıq» terminin dərk olunması üçün birmənalı onun mahiyyətini vermək çətindir. 100-dən çox mənası vardır. Bu da aydındır: «sağlamlıq» ümumibəşəri dəyər olduğu üçün müxtəlif sahələrdən olan mütəfəkkirlərin -filosofların, şairlərin, yazıçıların, sosioloqların, siyasi xadimlərin, həkimlərin, ekoloqların, gigiyenistlərin və b. diqqətini özünə cəlb etmişdir. Ümumdünya Səhyyə Təşkilatının nizamnaməsində (Cenevrə, 1958- ci il) «sağlamlıq» təkcə xəstəlik və fiziki qüsurların olmaması deyil, həm də tam fiziki, ruhi, sosial rifahın təmin olunmasıdır. 1986- ci ildə ÜST növbəti şərhi qəbul etmişdir: ««sağlamlıq» təkcə xəstəlik və fiziki qüsurların olmaması deyil, həm də tam fiziki, ruhi, sosial rifah vəziyyətidir». Bir sıra işlərdə sağlamlıq təkcə statik vəziyyət kimi şərh edilmir, o həm də bioloji və sosial funksiyaları yerinə yetirərkən ətraf mühitə uyğunlaşma prosesidir [39]. Ətraf mühit, sosial rifah keyfiyyətinin aşağı düşməsi, nəhəng texnogen qəzalar insanın müxtəlif orqan və sistemlərində ekoloji asılı və patoloji dəyişikliklərə, ömrün azalmasına səbəb olur. Bu problemin özəl tərəflərini, yəni ayrı- ayrı sənaye və kənd təsərrüfatı mühiti faktorlarının təsirləri qadın əməyinin peşə patologiyası ilə bağlı bir sıra tədqiqat işlərində öz əksini tapmışdır [12,22,30].

Eyni zamanda sübut olunmuşdur ki, ildən- ilə pisləşən ekoloji vəziyyət sənaye faktorlarının izolə olunmuş təsirlərinə nisəbətən daha çox reproduktiv sistemin funksional vəziyyətinə güclü təsir göstərə bilər. Əhalinin reproduktiv vəziyyətinin ərazi gigiyenik xarakteristikası ilə yanaşı yaşama, məişət mühiti həyat keyfiyyətinin qiymtələndirilməsi üçün vacib meyardır [24,25].

Reproduktiv funksiya planetdə həyatın davam etdirilməsinin əsasını təşkil edir, insan sağlamlığının ən vacib bioloji əhəmiyyətli tərəfidir. Onun realizə olunması üçün orqanizmin anatomik- fizioloji və davranış xüsusiyyətləri ilə yanaşı sosial faktorlar da xüsusi əhəmiyyət kəsb edir. Son on illkdə bizim ölkədə doğuşun səviyyəsinin və orta yaşayış müddətinin aşağı olması, yüksək ölüm həddinə görə demoqrafik vəziyyəti qeyri- qənaətbəxş hesab olunur. Bir ailə cütlüyünə doğuş göstəricisi 1- dən bir qədər çox düşür (lazım gəldikdə 2,6). Bu əhalinin sağlamlığının, eləcə də reproduktiv sağlamlığın aşağı səviyyədə olması ilə bağlıdır. Buna səbəb sosial stresslər, ekoloji yüklənmə, qida faktoru, tibbi yardımın təşkili və səviyyəsidir. Əmək şəraitinin pisləşməsi, peşəkar və sənaye xəstəliklər göstəricilərinin artması daha böyük əhəmiyyət kəsb edir. İnsanın reproduktiv sağlamlığının formalaşması anadan olmaz əvvəl baş verir və bir çox endogen və ekzogen risk faktorlarından asılı olur ki, bu faktorlar embriogenez dövrünə, onun valideynlərinin boyuna və inkişafı, onların somatik sağlamlığı və bir çox başqa faktorlardan asılı olur. Ontogenezin hər mərhələsində irsi və ətraf mühit faktorları arasında qarşılıqlı əlaqə balansında müəyyən bir qanunauyğunluq müşahidə olunur [12,13]. Sağlamlığın vəziyyətinə təsir göstərən faktorlar müxtəlif şəkildə təsnifləşdirilə bilər. M.M.Brjezovskiy (1990) aşağıdakı əlamətlər üzrə bölügünü təklif etmişdir: universallıq, təsirin xarakter və səviyyəsi, əhəmiyyəti, təsirin vaxtı, stabillik, idarəetmə səviyyəsi, öyrənmə dərəcəsi. Praktik sosial-gigiyenik tədqiqatlarda sağlamlığa təsir edən faktorların aşağıdakı qruplar üzrə bölünməsi ümumi qəbul olunmuşdur: demoqrafik, təbii- iqlim, sosial- iqtisadi, sosial- bioloji, sosial-gigiyenik, tibbi.

Reproduktiv sağlamlığın vəziyyətini təyin edən faktorlar arasında endogen və ekzogen faktorlar da vardır [12,13].

Endogen faktorlar: irsi; valideynlərin somatik sağlamlığının vəziyyəti; hamilələk zamanı ananın sağlamlığının vəziyyəti; ana və atanın reproduktiv sağlamlığı; valideynlərin reproduktiv funksiyaları təşkil olunarkən uşaq anamnezi və s.

Ekzogen faktorlar: əmək şəraiti faktoru; ətraf mühiti faktorları; həyatın sosial- iqtisadi göstəriciləri; tibbi yardımın keyfiyyəti; məişət şəraiti; balanslaşdırılmış qida (hamiləlik zamanı)

Əmək şəraiti faktoru:

1. Toksik və kanserogen maddələr;
2. Sənaye tozu;
3. Səs- küy;
4. Vibrasiya;
5. İonlaşdırılmış şüalanma (rentgen, γ şüalanma) və sahələr
6. Qeyri- ionlaşdırılmış şüalanma (SVÇ, lazer, infraqırmızı, ultrabənövşəyi) və sahələr;
7. Yüksək və aşağı temperaturlar;
8. Bioloji faktorlar (mikro- və makroorqanizmlər, vaksinlər, zərdablar, hormonlar, mayalar, mayayabənzər göbələklər, antiotiklər və s.);
9. Ağırlıq, gərginlik və əmək müddətinin uzun olması;
10. Dayaq- hərəkət aparatının statik və dinamik yüklənmələri;
11. Ağırlıqların qaldırılması və yerinin dəyişdirilməsi;
12. Narahat işçi vəziyyəti;
13. Psixi- emosional gərginlik (intellekt, yaddaş, diqqət, düşüncə);
14. Görmənin, eşitmənin gərginliyi;
15. Monotoniya;
16. Hipodinamiya və s.

İstehalatdan kənar faktorlar: valideynlərin yaşayış şəraiti; ailə üzvlərinin ev əməyində iştirak dərəcəsi; uşaqların sayı və yaşı; iş yeri ilə yaşayış yeri arasında məsafə; işə qədər nəqliyyət növü; yuxunun müddəti və s. [5,8,11,14,18].

Bununla yanaşı yüksək texnogen yükü olan rayonlarda fertilliyin aşağı düşməsi və hamiləliyin və yenidoğulmuşların pis sonluqları (antenatal ölümün artması, dölün hipotrofiyası, dölün inkişaf qüsurlarının sayı artması və yenidoğulmuşların xəstəliyi) üstünlük təşkil edir. Əlverişsiz sosial- iqtisadi fasktorları olan rayonlarda qəfləti düşüklər, vaxtından əvvəl doğuşlar, hamilələrin anemiyası, sidik- cinsiyyət orqanları xəstəlikləri, doğuş fəaliyyətinin anomaliyaları üstünlüku təşkil edir. Əlevrişsiz sosial- iqtisadi fasktorları olan rayonlarla əlverişsiz texnogen faktorlar arasında fərqlər müəyyən olunmuşdur. İnsanın reproduktiv sağlamlığı təkcə peşə fəaliyyəti ilə deyil, həm də başqa səbəblərlə, xüsusilə ətraf mühit fatkorları ilə təyin oluna bilər. Bu faktorlar insan orqanizmin spesifik funksiyalarına və nəsilin sağlamlığına pis təsir göstərə bilər. Sağlamlığın pozulmasına genetika (20%- ə qədər), ekologiya (20%- ə qədər), həyat tərzi (50%- ə qədər) və səhiyyə sistemi (10%- ə qədər) kimi faktorların təsirinin paylaşdırılması formulası da geniş vüsət almışdır [10,20,28,36].

Bir çox ölkələrdə faktorların (əsasən zərərli maddələrin) reproduktiv sistemə (EC ölkələrdə «reproduktiv toksiklik») əlverişsiz təsirin aktivliyinin növünün və dərəcəsini insan üzərində müşahidələrdə və eksperimentlərdə tətbiq olunan göstəricilər qəbul olunmuşdur. Zərərli maddələrin qadın və kişilərin reproduktiv funksiyalarına («reproduktiv toksiklik») təsiri aşağıdakı vasitələrlə həyata keçir:

- reproduktiv qabiliyyətə təsir, yəni qadın fertilliyi (bunlar libido, seksual davranış, mutasiya induksiyası ilə spermatogenez və ovogenezdir ki, sonrakı nəsillərdə, reproduktiv sikllərdə, hormonal aktivliyə və s. özünü göstərə bilər);

-inkişafda olan orqanizmə təsir, yəni mayalanma anından doğuşa qədər və doğuşdan sonra (qəfləti abortlar, struktur anomaliyalar, boyun pozulması və funksional çatışmamazlıq) [17,18,27].

Bu tədqiqatın aktuallığı ondan ibarətdir ki, hazırki vəziyyətin təhlili doğuşa yardım sahəsində daha da əsaslandırılmış idarəçilik qərarlan qəbul edilməsinə imkan verəcək və yaşayış mühitinin əlverişlilik dərəcəsi nəzərə alınmaqla tibbi profilaktik tədbilərin planlaşdırılması, maliyyələşdirilməsi və aparılmasına yönələn prioritet istiqamətlər üçün oriyentir ola biləcəkdir.

Sübut olunmuşdur ki, əlverişsiz ekoloji şəritin təsiri altında sinir sisteminin perinatal zədələnməsi, inkişafın irsi qüsurları, vaxtından əvvəl doğuş, doğuş travması, anadangəlmə pnevmoniya, respirator xəstəlikləri, dölün hipotrofiyası hallarının tezliyi artır [15,16]. Şəhərlərdə hamiləlik və doğuş ağırlaşmalarının maksimal texnogen yük ilə yayılma dərəcəsi 2 dəfə yüksək

olmuşdur. Bu regionlarda 52-71% qadında anemiya, sidik- cinsiyyət sistemi xəstəlikləri- 47%, hestozlar-54-60%, vaxtından əvvəl doğuşlar-13,5% qeyd alınmışdır. Hamiləlik və doğuş ağırlaşmalarına ekoloji faktorların əlverişsiz təsiri bir sıra müəlliflərin tədqiqatlarında göstərilmişdir [19]. Bir sıra müəlliflərin eksperimental tədqiqatlarında əlverişsiz faktorların ümumilikdə ana- döl sistmeinə təsiri göstərilmişdir.

Perinatal ölüm səviyyəsində ətraf mühit vəziyyətinin təsirinin mahiyyəti ayrı- ayrı coğrafi ərazilər üzrə aparılan tədqiqatlarda təsdiq olunmuşdur. Sənaye şəhərində olan qadınlarda doğuş aktının gedişatı da öz xüsusiyyətlərinə malikdir. Onlarda doğuşlar 1,9 dəfə tez və sürətli olmuş, doğuş zamanı qanaxma hallarına 2 dəfə çox rast gəlinmişdir. Müxtəlif ekoloji ərazilərdən olan yenidoğulmuş uşaqların ümumi və fiziki vəziyyəti ilə bağlı göstəricilərdə statistik əhəmiyyətli fərqlər aşkar edilmişdir. Belə iri sənaye şəhərində vaxtından əvvəl və ya gecmiş doğuşların tezliyi 2-2,5 dəfə çox olur, bu zaman vaxtından əvvəl doğuşların yarısı hamiləliyin 32-ci həftəsinə təsadüf edir. Əlverişsiz ekoloji şəraiti olan şəhərlərdə uşaqlar bədən çəkisi 4000 q- dən çox olmaqla dünyaya gəlir. Sənaye tullantıları ilə çirklənmiş ətraf mühit (ƏM) düşük, vaxtından əvvəl doğuş və İİQ göstəricilərinin artmasına səbəb olur. İnkişaf qüsurları arasında ən geniş yayılmışı- naməlum səbəblərdən baş verən inkişaf qüsurlarıdır.

Çoxsaylı tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, sənaye kimyəvi birləşmələri ilə atmosfer havasının çirklənməsinə paralel olaraq neonatal ölümün və anadangəlmə anormal inkişaf nəticəsində yenidoğulmuşların ölüm göstəriciləri də artır. Yenidoğulmuşların fiziki inkişafı onların analarının orqanizminə ƏM təsirinin yaxşı indikatoru hesab olunur. Bununla əlaqədar olaraq ətraf mühitin əlverişsiz faktorlarının qadın sağlamlığına təsirinin qiymətləndirilməsi üçün yenidoğulmuşların fiziki inkişaf göstəricilərinin tədqiq olunması böyük əhəmiyyət kəsb edir.

Məlumdur ki, dölün sağlamlığının əsas parametrlərinin formalaşması bətndaxili inkişafın hələ ilk həftələrində baş verir. Bu dövrdə, təbii ki, hamilə qadının əmək şəraiti böyük rol oynayır. Bir sıra sənaye şəhərlərində yenidoğulmuşların bədən çəkisinin aşağı düşməsi fiksə olunmuşdur. Belə, iri sənaye müəssisələrinin təsir zonasında olan və atmosfer havasının və uyğun olaraq torpağın yüksək çirklənməsi ilə xarakterizə olunan bir çox meqapoilislərdə analardan doğulan uşaqlarda dəbən çəkisi nisbətən «təmiz» şəhərlərdə doğulan uşaqlara nisbətən 10% azdır. Sənaye müəssisələri və onların komplekslərinin əhatəsinidə uşaq ölümü ilə atmosfer havasının sanitar vəziyyətinin keyfiyyət və kəmiyyət baxımından tədqiqinin nəticələri müqayisə olunarkən məlum olmuşdur Ki, sənaye tullantılarının kimyəvi tərkibi mürəkkəbləşdikcə (metal oksidləri hesabına) və çirklənmə təhlükəsi indeksi artdıqca uşaq ölümü tezliyinin artması da baş verir. Qara, rəngli və nikel sənayesinin inkişaf etdiyi şəhərlədə atmosfer havasının çirklənməsi qadınlarda hamiləlik və doğuş ağırlaşmalarının və perinatal xəstəliklərin, uşaqlarda anadangəlmə qüsurların artmasına səbəb olur. Bundan əlavə bu şəhərlərin uşaq və yaşlı əhalisi arasında endokrin və sinir sistemi, tənəffüs, həzm, hissiyyat orqanları xəstəliklərinin dürüst artması qeydə alınmışdır. Perinatal dövrdə uşaq sağlamlığı qüsurlarının formalaşması əsasən anada hamiləlik vəziyyəti ilə bağlıdır və ana orqanizminin dölə təsiri və ətraf mühitin çirklənməsi ilə şərtlənir [26,29,34,35]. Müəyyən olunmuşdur ki, yüksək atmosfer çirklənməsi şəraitində yaşayan qadında ciftin kompensator- uyğunlaşma mexanizminin zəifləməsi baş verir [16]. 600-ə yaxın kimyəvi maddə məlumdur ki, cift vasitəsilə anadan dölə keçmək və onun inkişafına bu və ya digər dərəcədə mənfi təsir göstərmək qabiliyyətinə malikdir. Ona görə də embrional inkişafın pozulması bu qabiliyyət ilə sıx əlaqədədir, bunun nəticəsində embrionun inkişafı onun daxili mühitinin kimyəviləşməsi şəraitində baş verir [20,26,29].

Nə etməli? Hazırda insanın sağlamlığı tədqiq olunarkən ƏM faktorlarının təsiri xüsusiyyəti nəzərə alınaraq vahid şəklə salınmış tədqiqat metodlarından istifadə olunur. İnsan orqanizmiin zərərli ƏM təsirlərinə reaksiyası çoxpilləlidir və geniş spektrili təzahürlərlə xarakterizə olunur- cüzi fizioloji dəyişikliklərdən başlamış qabarıq patoloji dəyişikliklərə qədər baş verə bilir. Hətta əgər xəstəliyin dəqiq mənzərəsi belə baş vermirsə, uşaq orqanizminin qeyri- spesifik rezistentliyinin aşağı düşməsi nəticəsində onların baş verməsi üçün şərait yaranır.

Aparılan iri miqyaslı elmi tədqiqatlarla yanaşı profilaktik təbabəti də inkişaf etdirmək və genişləndirmək lazımdır. Hazırda bir çox müəlliflər tərəfindən qəbul olunur ki, əlevrişsiz sosial-gigiyenik faktorların cüzi təsiri rahat və rasional əmək və məişət şəraitinin yaradılması, həyat səviyyəsinin artırılması, gigiyenik normativlərə əməl olunması hesabına azaldıla bilər [31-33,39]. İlk növbədə bu mikro iqlim mühitə və işıqlandırma səviyyəsinə aiddir.

ƏDƏBİYYAT

1. Гулийева Р.Т. Ятраф мцщитин ялверишсиз фактору ялейщиня Селенин протектор тясири // Репродуктив асьламлыг вя периналотоэийа, 2005,№3, с.53-56
2. Мамед-заде Г.Т., Меликова Л.А., Смирнова Е.Е. и др. Диагностика синдрома Ленгдона Дауна, как составная часть мониторинговой программы врожденных пороков развития в Азербайджане // Репродуктив асьламлыг вя периналотоэийа, 2004,№2, с.69-73
3. Мамед-заде Г.Т. Мониторинговой программы врожденных пороков развития в Азербайджане // Репродуктив саьламлыг вя периналотоэийа, 2004, №2, с.69-73
4. Шамхалова И.А., Магеррамова А.А. Влияние социально- экономической неблагополучия на иммунную систему // Репродуктив саьламлыг вя периналотоэийа, 2004, №3, с.31-39
5. Андреева М.В. Состояние репродуктивного здоровья женщин и их потомства в регионе с экологически напряженной обстановкой М.В. Андреева // Журн. акушерства и женских болезней, 2000, Вып.3, с.29-30
6. Андреева М.В. Состояние репродуктивного здоровья женщин и их потомства в регионе с экологически напряженной обстановкой М.В. Андреева // Журн. акушерства и женских болезней.- 2000. Вып.3.-С. 29-30.
7. Баранов А.А.Окружающая среда и здоровье // Педиатрия, 1994, №5, с.3-4
8. Бурденко Л.Г. Репродуктивное здоровье женщин, проживающих в экологически неблагоприятном промышленном регионе: Автореф. дисс. канд. мед. наук. Волгоград, 1989. 23 с.
9. Василенко И.Я., Василенко О.И. Техногенное загрязнение внешней среды и здоровье населения /Материалы III Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2004. С.56-58
10. Гайнуллина М.К. Критерии влияния условий труда нефтехимических производств на состояние здоровья женщин-работниц / Материалы III Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2004, с.85-87
11. Гигиеническая оценка вредных производственных факторов и производственных процессов, опасных для репродуктивного здоровья человека: метод, рекомендации МЗ РФ. М., 2002, 16 с.
12. Григорьева Е.А. Резервы оптимизации репродуктивного здоровья в современных социально-экономических условиях крупного промышленного города: Автореф. диссертации доктора мед. М., 2007, 36с.
13. Земляная Г.М., Соленова Л.Г., Федичкина Т.П. Задачи и возможные пути их решения в области факторов эпидемиологии заболеваний, связанных с воздействием окружающей среды // Гигиена и санитария. 2005, №6, с.45-48
14. Ишуткина О.И. Показатели нарушений репродуктивного здоровья критерии оценки факторов промышленной экологии О.И. Ишуткина, Н.Х. Амиров и др. / Материалы IV Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2005, с. 84-86
15. Калинин К.Э. Социально-гигиеническая оценка репродуктивного потенциала населения крупного промышленного центра Заполярья: Автореф. дис. канд. мед. наук. Новосибирск, 2007, 19 с.
16. Корсак В.С., Кирсанов А.А., Попенко Е.В. и др. Влияние экологических факторов Тюменской области на репродуктивное здоровье женского населения и результаты экстракорпорального оплодотворения //Журн. акушерства и женских болезней, 2000, Вып.3, с.23-24
17. Кутепов Е.Н., Вашкова В.В., Чарыева Ж.Г.Особенности воздействия факторов окружающей среды на состояние здоровья отдельных групп населения // Гигиена и санитария, 1999, №6, с.13-17
18. Леонова Н.Г. Влияние социально-экономических условий на процессы воспроизводства // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2007, №1, с.19-25
19. Линева О.И., Засыпкин М.Ю. Экологические аспекты репродуктивного здоровья женщин // Медицина труда и промышленная экология, 1999, №3, с.43-4
20. Никитин А.И. Вредные факторы среды и репродуктивная система человека (ответственность перед будущими поколениями). СПб.: ЭЛБИ- СПб., 2005, 216 с.
21. Охрана репродуктивного здоровья работников. Основные термины и понятия: метод, рекомендации МЗ РФ / под ред. Измирова Н.Ф., Сивочаловой О.В. М., 2003.
22. Рахманин Ю.А., Румянцев Г.И., Новиков Ю.А., Интегрирующая роль медицины окружающей среды в профилактике, ранней диагностике и лечении нарушений здоровья, связанных с воздействием факторов СМ. среды обитания человека // Гигиена и санитария, 2005, №6, с.3-6
23. Сивочалова О.В., Беляева Т.В. Резолюция Совместного совещания Межведомственного Совета «Медико-экологические проблемы охраны репродуктивного здоровья работающих» и Проблемной комиссии «Экология и репродуктивная функция женщины» Научного совета по акушерству и гинекологии РАМН от 11-12 мая 2000 года // Журнал акушерства и женских болезней, 2000, №3, с.49
24. Сивочалова О.В., Фесенко М.А., Морозова Т.В. и др. Профессия и репродуктивное здоровье женщин -работниц / Материалы III Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2004, с.41-43.

25. Сивочалова О.В. Охрана матери и ребенка в современных условиях (точка зрения специалиста по медицине труда) / Материалы V Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2006, с.643-645

26. Султанбеков З.К., Букунова А.Ш. Воздействие тяжелых металлов на репродуктивное здоровье женщин в городе Усть-Каменогорске / Материалы V Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2006, с.281-283

27. Сухарев А.Е., Беда И.А., Ермолаева Т.Н. Социально-гигиенические, клинико-иммунохимические и психосоматические исследования в оценке состояния здоровья женщин репродуктивного и др. возраста // Фундаментальные исследования, 2007, №6

28. Талыкова. Л.В. Показатели влияние социально-экономических факторов на здоровья работающего населения репродуктивного / Материалы V Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2006, с.655-657

29. Тихонова Г.И., Лебедева Н.В., Федорова Б.В. Влияние органических растворителей на детородную функцию исследование) женщин-маляров (эпидемиолого-гигиеническое // Медицина труда и промышленная экология, 1997, №3, с.20-24

30. Ткачев П.Г. Экологическая медицина или экология человека // Гигиена и санитария, 1995, №4, с.54-56.

31. Фесенко М.А. Вопросы охраны репродуктивного здоровья женщин-работниц в международных системах химической безопасности / Материалы V Всероссийского конгресса «Профессия и здоровье». М.: «Дельта», 2006, с.307-309

32. Фролова О.Г. Вопросы охраны репродуктивного здоровья в решениях Минздрава РФ в 2002 г. ОТ. Фролова, И.А. Ильичева // Акушерство и гинекология. 2003. 4. 63-64

33. Чащин В.П., Сивочалова О.В., Денисов Э.И. Экологические и этические проблемы охраны репродуктивного здоровья населения // Вестник Росс. АМН, 2003, №3, с.13-17. 214

34. Экологические факторы и репродуктивное здоровье девушек. Киров, 1999, 186 с.

35. Environment and Health: An International Concordance on Selected Concepts. WHO/ROE (August 2000). Geneva, 2000.

36. Epstein R. Human Molecular Biology, Molecular Basis of Health hand Disease R. Epstein Cambridge, Univesaty Press, 2003, 623 p.

37. Human and Ecological Risk Assessment. Theory and Practice Edited by D.J. Paustenbach. Wiley-lnterscience, 2002. 1556 p.

38. Wagner V. Ecoimmunologie V. Wagner, M. Wagnerova Praha, 1988.

SUMMARY

THE ACTUAL ASPECTS OF INFLUENCE ENVIRONMENTAL CONDITION OF ECOLOGY SYSTEM TO REPRODUCTIVE HEALTH

N.M. Kamilova, I.A.Sultanova, S.N.Mamedova

This articale is about actual problems of influence of environmental condition to reproductive health of womwn. There were analysed some materials of our and foreign authors on this topic.

ORİJİNAL MƏQALƏLƏR- ОРИГИНАЛЬНЫЕ СТАТЬИ

KLİMAKTERİK POZUNTULAR ZAMANI BƏZİ MÜALİCƏ- PROFİLAKTİKA TƏDBİRLƏRİNİN TƏTBİQİNİN EFFEKTİVLİYİ

M.İ.İsmayalova
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi- tədqiqat Mamalıq və Ginekologiya institut, Bakı

Hesab olunur ki, KS- in profilaktika və müalicəsinin əsasən patogenetik cəhətdən əsaslandırılmış metodu cinsi steroid hormonların analoqların tətbiqindən ibarət əvəzedici hormonal tepapiyadır (ƏHT). Onun tətbiq olunma tezliyi müxtəlif ölkələrdə fərqlidir. ABŞ- da ƏHT qəbul edən peri- və postmenopauzal yaşda olan qadınların sayı 30-40%, Avstraliyada isə 28%- ə çatır, Avropada 12 - 22% arasında tərəddüd edir, Britaniyada 12%- dən az təşkil edir [1]. ƏHT- nin istifadə olunma tezliyi ilə bağlı belə qabarıq fərqlər həm onu təyin edən tibb işçilərinin rəyi, həm də qadınların bu müalicə üsulu ilə bağlı şəxsi fikirləri ilə bağlıdır ki, bu da ƏHT- in qəbul edilməsinə razılığın verilməsi, sonra isə ondan imtina edilməsinə səbəb olur. Qadınların informativliyi və demoqrafik xüsusiyyətləri, sosial- iqtisadi statusu, təhsil səviyyəsi, mədəniyyətdəki fərqlər də ƏHT- nin üstünlük və riskli cəhətləri ilə bağlı təsəvvürlərinin yaranmasına təsir göstərir. Vazomator simptomların olması və müsbət terapevtik effekti adətən ƏHT- yə qarşı pozitiv münasibətin yaranmasına səbəb olur. Profilaktik məqsədlərələ hormonal preparatların qəbul edilməsi üçün qadında gələcəkdə bundan xeyirli nəticə əldə olunması haqda fikirin formalaşması lazımdır.

Qadının təbii estrogen çatışmamazlığının nəticələrini aradan qaldırmaq məqsədilə hormonları qəbul etməsi məsələsi ətrafında mütəxəssislərin fikir mübadiləsi ədəbiyyatda geniş əks olunmuşdur. ƏHT- in öz tərəfdarları və əleyhdarları vardır. Bəziləri hesab edirlər ki, erkən simptomların, gec mərhələdə ürək- damar xəstəliklərinin və osteoporozun qarşısının alınması üçün bu müalicə növü zəruridir[2,3]. Digərləri düşünürlər ki, hormonların uzun müddət qəbul edilməsi müəyyən növ xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilər [4,5]. Seçim etmək hər zaman qadına qalır və əldə olunan informasiyaya, həkimin rəyinə və onun səhhətinin vəziyyətinə əsaslanır. Bundan əlavə bir sıra suallar meydana gəlir, məsələn: hansı estrogenlər daha çox uyğun gəlir, hansı müalicə sxemini tətbiq etmək lazımdır və hansı applikasiya növləri daha əlverişlidir?

Perimenopauzal dövrdə klimakterik simptomların yüngülləşdirilmsi və müntəzəm sikilləri tənzimləmək üçün ƏHT- nin prinsipi siklik rejimdə estrogen və progestinlərin təyin olunmasına əsaslanır. Menopauzadan sonra yaxşı olardı ki, aybaşıya bənzər ifrazatlar baş verməsin; bu dövrdə müalicənin məqsədi KS simptomlarının aradan qaldırılması, fiziki və psixi mənada həyat keyfiyyətinin yaxşıdaşdırılması, osteoporoz və ürəyin işemik xəstəliklərinin aradan qaldırılmasından ibarətdir. Bununla əlaqədar olaraq klimakterik dövrdə hormonal perparatların fasiləsiz rejimdə təyin olunmasına üsütünlük verilir. Urogenetik sistemin qabarıq qocalma əlamətləri baş verdikdə seçim vasitəsi estrogenlər, spesifik kolpo- və urotrop aktivliyə malik estriol və onun analoqları olur. ƏHT təyin olunarkən lokal urogenital pozuntuları olan xəstələrin məqsədi urogenital sistemin hormonol toxumalarının normal funksional vəziyyətinin bərpa olunmasından və sidik- cinsiyyət sisteminin aşağı şöbələrində təbii bioloji müdafiə mexanizminn stimulyasiyasından ibarət olur [6].

Yuxarıda qeyd olunanları nəzərə alaraq bizim işin MƏQSƏDİ KS zamanı bir sıra müalicə-profilaktika tədbirlərinin effektivliyinin tədqiqindən ibarətdir.

Нами разработана следующая схема показаний к оперативному лечению. У больных со свищами, расположенными на глубине до 2-2,5 см, выполняется рассечение свища, после чего рана напоминает разрыв промежности III степени. Дефект сфинктера, как правило, в этом случае не превышает 1/3 его окружности. Таким больным показано восстановление целостности стенок прямой кишки и влагалища со сфинктеро- или сфинктеролеваторопластикой. Если свищевое отверстие находится на глубине 2,5 см от преддверия влагалища и диаметр его менее 1 см, а дефект сфинктера менее ½ окружности наиболее адекватной является предложенная нами модификация операции. Дугообразным разрезом между влагалищем и прямой кишкой разделяется ректовагинальная перегородка до свищевого хода. Так как в месте расположения свища имеется интимное сращение стенок влагалища и прямой кишки, то при разделении свища часто повреждается стенка прямой кишки и свищевое отверстие увеличивается в 2-3 раза. Для предупреждения повреждения прямой кишки мы пользуемся следующим приемом: разделение ректовагинальной перегородки производится без пересечения свища, обходя его со всех сторон. Ориентиром является пуговчатый зонд, введенный в свищевой ход. Со стороны слизистой влагалища свищ иссекается и вводится в рану ректовагинальной перегородки, где он после экономного иссечения рубцов, прошивается и перевязывается. Культя свища погружается в кисетный шов и ушивается отдельными викриловыми швами. Затем выполняется сфинктеролеваторопластика.

При высоко расположенных свищах более 4 см от входа во влагалище, свищах и размерах их, превышающих 2 см и при дефекте сфинктера, превышающем половину окружности, мы используем разработанную нами модификацию - сфинктероглютеопластику. Это позволяет создать хорошую мышечную прослойку между прямой кишкой и влагалищем. Методика операции заключается в следующем: дугообразным разрезом выполняется разделение ректовагинальной перегородки и свища на максимально возможную глубину (5-6 см). Свищевые отверстия на стенки прямой кишки и влагалища, со стороны раны, ушиваются двухрядным викриловым швом. Из рубцов выделяются концы поврежденного сфинктера. Из клюшкообразного разреза над правой ягодичной мышцей выделяется мышечный лоскут, состоящий из 2/3 большой ягодичной мышцы на всю ее длину. Обязательным является тщательное выделение и сохранение сосудисто-нервного пучка. Из разреза над левым седалищным бугром обнажаются связки и надкостница последнего. Путем подкожной тоннелизации, оба разреза соединяются с промежностной раной. Отдельными викриловыми швами сшиваются края разошедшихся мышц, поднимающих задний проход.

Выделенный миотрансплантат проводится в подкожном тоннеле и помещается между стенками влагалища и прямой кишки. Края поврежденного сфинктера «П»-образными швами подшиваются к мышечно-фасциальному лоскуту. Верхушка его фиксируется капроновыми швами к надкостнице и связкам левого седалищного бугра. Рана промежности ушивается двумя перпендикулярными рядами швов.

РЕЗУЛЬТАТЫ И ОБСУЖДЕНИЕ. У больных в нашей клинике применяется дифференцированный подход к оперативному лечению ректовагинальных свищей. Выбор метода оперативного лечения зависит от глубины расположения ректовагинальных свищей, от его размеров и степени недостаточности анального жома.

Рассечение свища применено у 4 (9,3%) больных. 29 (67,4%) больным со свищами небольших размеров, но расположенными глубже 2 см, выполнена операция по методике клиники со сфинктеролеваторопластикой. У 10 (23,3%) больных, у которых высоко расположенные большие свищи, сочетались с дефектом сфинктера превышающим половину окружности, выполнена операция сфинктероглютеопластика в модификации клиники.

В послеоперационном периоде у 5 больных возникло нагноение ран, у одного больного образовался параректальный свищ, а у 2-х - больных ректовагинальный свищ.

ЗАКЛЮЧЕНИЕ. В лечении ректовагинальных свищей, сочетающихся с недостаточностью анального жома, наиболее адекватным является дифференцированный подход к выбору метода операции в зависимости от его размера, глубины расположения и степени недостаточности анального жома. Тщательная предоперационная подготовка и послеоперационное ведение таких больных, а также комплекс мероприятий, направленных на предупреждение гнойных осложнений позволил уменьшить число рецидивов до 2%.

ЛИТЕРАТУРА

1. Краснопольский В.Н., Буянова С.Н. Генитальные свищи. М.^ Медицина, 1994, 220 с.

2.Федоров В.Д. и соавт. Клиническая оперативная колопроктология. М.:Медицина, 1994. с. 124-127.

3.Фролов С.А., Полетов Н.Н., Подмаренков В.А. Комплексная реабилитация больных с полной недостаточностью анального жома / Матер. 1-го съезда колопроктологов СНГ.Ташкент, 2009, с.232-233

SUMMARY

THE CHOICE OF SURGICAL TACTICS FOR TREATMENT OF RECTOVAGINAL FISTULAE IN PATIENTS WITH ANAL SPHINCTER INCONTINENCE

S.H.Sultanova

The differential approach to treatment of patients with rectovaginal fistulae and dysfunction of sphincter muscle is very important. It's relevant to pay attention to the volume of fistula pathway, the depth of fistula location, and the degree of sphincter muscle dysfunction. The complete preoperative preparation, postoperative management and complex prevention of wound suppuration further to reduce the recurrence rate 2 times.

Daxil olub:12.05.2010

QISMI KONXA REZEKSIYASI ƏMƏLIYYATI NƏTICƏLƏRININ AKUSTIK RINOMETRIYA ILƏ ARAŞDIRILMASI

S. Yusubov, E. Turan

Dövlət Gömrük Komitəsi Mərkəzi Hospitalı; Hacettepe Universiteti Tibb Fakültəsi

Alt burun balıqqulağı hipertrofiyası xroniki burun tıxanması şikayətlərinin əsas səbəblərindən biridir. Balıqqulağı hipertrofiyası burun arakəsməsinin əyilməsi (kompensator hipertrofiya), allergik və allergik olmayan rinitlərdə meydana gəlir [8]. Bəzi epidemioloji araşdırmalarda insanların 20 %-nin balıqqulağı hipertrofiyası səbəbi ilə burun tıxanması şikayəti olduğu göstərilmişdir [9].

Rinit səbəbi ilə əmələ gəlmiş balıqqulağı hipertrofiyasının medikamentoz və cərrahi müalicə üsulları mövcuddur. Balıqqulağı hipertrofiyası medikamentoz müalicə ilə keçmədiyi hallarda cərrahi müdaxilə edilir. Konxaya steroid inyeksiyası, kriocərrahiyyə, elektrokoterizasiya, konxa lateralizasiyası (out-fracture), tam və qismi balıqqulağı rezeksiyası, submukoz rezeksiya, lazerlə turbinoplastika, radiofrekansla toxuma ablasiyası (RFTA) kimi bir çox cərrahi müalicə üsulları var [4].

Bu məqalədə qismi konxa rezeksiyası əməliyyatından öncə və sonra burun tıxanması şikayəinin obyektiv (akustik rinometriya) və subyektiv olaraq dəyərləndirilərək nəticələrin müqaisəsi edilmişdir.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Bu araşdırma Noyabr 2008 - Fevral 2009 tarixləri arasında, Türkiyənin Ankara şəhərində, Hacettepe Universiteti Tibb Fakultəsi Qulaq-Burun-Boğaz xəstəlikləri kafedrasında həyata keçirildi. Araşdırma üçün Hacettepe Universiteti Tibb Fakültəsi tibbi, cərrahi və dərman araşdırmaları etik komitəsindən izin alınmışdır.

Xəstələr: İki tərəfli alt balıqqulağı səbəbli, medikamentoz müalicəyə cavab verməyən, xroniki burun tıxanması səbəbi ilə təqib edilən 11 xəstə (5 qadın və 6 kişi) könüllü məlumatlandırılmış razılıq ərizələri alınaraq araşdırmaya daxil edilmişlər. Xəstələr ən az 3 ay medikametentoz müalicə almışlar. Daha əvvəl burun əməliyyatı olan, əhəmiyyətli burun arakəsməsi əyilməsi, arakəsmə perforasiyası, burun polipozisi, sinuzit, burun boşluğunun şişi olan, şüa terapiyası almış xəstələr araşdırmaya daxil edilmədi. 11 xəstənin 22 balıqqulağına qismi konxa rezeksiyası əməliyyatı edildi.

Konxa rezeksiyası. Qismi konxa rezeksiyaları ümumi anesteziya altında, əməliyyatxana şəraitində icra edilmişdir. Alt burun balıqqulağı medializasiya edilərək horizontal vəziyyətə gətirildikdən sonra, konxa qayçısı ilə balıqqulağının alt 1/3-1/4 qismi kəsilmişdir. Prosedur əsnasında qayçı ağzı vertikal planda açılıb-bağlanaraq, burun çəpəri və burun yan divarını zədələməəkdən qaçınılmışdır. Selikli qişa zədələnməsini minimallaşdırmaq üçün, kəsmə işi balıqqulağının arxa ucuna qədər davam etdirilmişdir. Forsepslə tutub qoparmaqdan qaçınılmışdır. Balıqqulağı lateralizasiya edilib, burun boşluğuna tampon yerləşdirilmişdir. Xəstələr 5 gün antibiyotik istifadə etmiş, əməliyyatdan 2 gün sonra tamponlar çıxardılaraq 2 həftə boyunca fizyoloji məhlulla burun irriqasiyası edilmişdir.

Dəyərləndirilmə: Burun boşluqları əməliyyatdan öncə və əməliyyatdan sonrakı 6-cı həftədə akustik rinometriya ilə ölçüldü. Əməliyyatdan öncə və sonrakı 6 həftə boyunca vizual analoq şkala (VAŞ) ilə xəstələrin burun tıxanması şikayətləri dəyərləndirildi.

a) Akustik Rinometriya. Akustik rinometriya Eccovision®, Hood Labs, USA cihazıyla edildi. Ölçmələrdən əvvəl hərəkətin əmələ gətirəcəyi burun daxili selikli qişa və vaskulyar variyasiyaları minimuma endirmək üçün, xəstələr 15-30 dəqiqə dincəldilər. Hər ölçmədən əvvəl cihaz kalibrasiya

edildi. Akustik rinometriyada əldə edilən, balıqqulağı ön ucu səbəbli C-çökəyi, minimum kəsik sahəsi (MKS, sm²) dəyərləri statistik analizdə istifadə edildi.

b)VAŞ. Standard 10 sm vizual analoq şkala xəstələrin burun tıxanması şikayətlərini subyektiv olaraq dəyərləndirmək üçün istifadə edildi. 0 bal heç tıxanma şikayətinin olmadığını, 10 bal isə burunun tamamən nəfəs almadığını bildirirdi.

c) Statistik analiz. Statistik analiz SPSS 16.0 kompyuter programı vasitəsi ilə edilmişdir. T-test, paired samples test, Wi1coxon signed ranks test istifadə edilmişdir.

NƏTICƏLƏRIN TƏHLILI. Akustik rinometriya: Əməliyyatdan öncəki rinometriya dəyərləri ortalaması 0.425 sm² (±0.093 SD) olaraq ölçülmüşdür. Əməliyyatdan sonrakı 6-cı həftə əldə edilən rinometriya dəyərlərinin ortalaması isə 0.677 sm² (±0.191 SD) olduğu tapılmışdır. Əməliyyat öncəsi və sonrası ölçülər arasında statistiki olaraq əhəmiyyətli fərq tapılmışdır (T-test, paired samples test, P=0.000). (Cədvəl1)

Cədvəl 1
Əməliyyatdan öncə və sonrakı rinometriya dəyərləri

	Preoperativ	Postoperativ
Ortalama	0,4250	0,6773
Konka sayısı	22	22
SD	0,09354	0,19132
Median	0,4250	0,7000
Minimum	0,25	0,40
Maksimum	0,65	1,20

VAŞ balları: Birinci həftə VAŞ balları ortalaması 6.82 ikən, 6-cı həftə 0.23 olduğu təyin edilmişdir. İlk həftədən etibarən VAŞ dəyərləri əməliyyatdan öncəkilərdən əhəmiyyətli dərəcədə azalmışdır (Wi1coxon signed ranks test, 1-6-cı həftələr P=0.000). Bu da burun tıxanması şikayətinin azaldığını xəstələrin ilk həftədən etibarən hiss etdiyini göstərir (Cəd.2).

Cədvəl 2
VAŞ dəyərləri

	ƏÖV*	1-ci həftə	2-ci həftə	3-cü həftə	4-cü həftə	5-ci həftə	6-ci həftə
Ədədi orta	6.82	0.50	0,32	0,32	0,55	0,32	0,23
SD	1,220	1,263	0,945	0,945	1,503	0,839	0,612
Median	7,00	0,00	0,00	0,00	0,00	0,00	0,00
Minimum	5	0	0	0	0	0	0
Maksimum	9	5	4	4	6	3	2

*Əməliyyatdan öncəki VAŞ dəyərləri.

NƏTICƏ VƏ MÜZAKIRƏLƏR. Müasir rinologiyada burunun daxili quruluşunu araşdırmaq üçün istifadə etdiyimiz metodlardan biri də akustik rinometriyadır. Bu metod 1989-cu ildə Hilberg və həmkarları [3] tərəfindən rinologiya praktikasında ilk dəfə tətbiq edilmişdir.

Akustik rinometriya burun boşluğuna səs dalğalarının göndərilməsi və əks olunan səsin ölçülməsinə əsaslanır. Burun boşluğunun öndən arxaya doğru müxtəlif səviyyələrdə genişləmə və daralmalar, səsin əks edilməsində dəyişməyə səbəb olur. Əks olunan səs mikrofonla qeyd edilir və kompyuter tərəfindən rəqəmlərə çevrilirək, əks olunan səslə burun boşluğudakı sahənin genişliyi təyin edilir. Beləcə burun ucundan məsafə-kəsik sahəsi funksiya qrafiki çəkilir.

Bu funksiyanın əsasən iki çökəyi olur. Bunlardan ilki istmus nazidəki İ-çökəyir. İkincisi isə alt konxanın başın səviyyəsindəki C-çökəyidir. Bu cihazla burun girişindən etibarən sonuna qədər, burun boşluğunun kəsik sahələri ölçülür. Fəqət burun boşluğunun arxa 1/3 qismində ölçmələr, yumşaq damağın hərəkətli olması səbəbindən fərqli nəticələr verə bilər. Akustik rinometriya xüsusilə burun tıxanmasına səbəb olan patologiyanın yerinin təyinində faydalı bir metoddur [5,10].

Daha sonrakı araşdırmalarda bu metodun effektivliyi, normal dəyərləri və istifadə zamanı diqqət yetirilməsi lazım olan xüsusiyyətlər təyin edilmişdir. İstifadə zamanı diqqət ediləcək ən əhəmiyyətli xüsusiyyətlər, alət ucluğunun buruna girmə bucağının stabilliyi, burun ucunu prosedur zamanı deformasiya etməmək, uyğun ucluğun seççilməsi və tətbiq zamanı boşluqlardan səs qaçağının önlənməsidir. Buna əlavə olaraq prosedur əsnasında xəstənin udqunmaması və nəfəs almaması gərəkir. Prosedurdan əvvəl 30 dəqiqə boyunca xəstə dincəlməli, soyuq və istidən qorunmalıdır, qəhvə və tütün istifadə etməməlidir [2,7].

Gilain və həmkarları [6] akustik rinometriya nəticələri ilə kompyuter tomoqrafiyalarını müqayisə edərək, akustik rinometriyanın xüsusilə ön burun boşluğunun dəyərləndirilməsində faydalı bir metod olduğunu bildirilmişlər. Əslində rinoloqların ən çox maraqlandıqları, burun boşluğunun məhz ön qismi olduğu üçün, praktikada bu metodun burun boşluğunun arxa qismini dəyərləndirməsi əhəmiyyət kəsb etmir. Yenə akustik rinometriya ilə kompyuter tomoqrafiyası nəticələrini müqayisə edən başqa bir çalışmada, akustik rinometriyanın burun qapağı (nasal valve) bölgəsinin ölçülməsində effektiv bir metod olduğu göstərilmişdir [1].

Çalışmamızda konxa hipertrofiyası səbəbi ilə burun tıxanması şikayəti olan xəstələrdə qismi konxa rezeksiyasının effektivliyi obyektiv (akustik rinometriya) və subyektiv (VAŞ) metodlarla dəyərləndirilmişdir. Konxa rezeksiyası nəticəsində burun boşlugu həcmində genişləmənin olması akustik rinometriya ilə təyin edilmişdir. Bu nəticəmiz ədəbiyyatdakı analoji çalışmaların nəticələrinə də uyğundur . Burun tıxanması şikayətinin əməliyyatdan sonrakı 6 həftə boyunca VAŞ balları ilə təqibi nəticəsində, burun tıxanması şikayətinin ilk həftədən etibarən düzəldiyi görüldü.

Akustik rinometriya xüsusilə burun tənəffüsünün pozulduğu xəstələrdə, əməliyyat öncəsi və sonrası burun həcmindəki dəyişiklikləri obyektiv olaraq qiymətləndirən, dəyərli bir metoddur.

ƏDƏBIYYAT

1. Cakmak O, et al. Value of acoustic rhinometry for measuring nasal valve area // Laryngoscope. 2003, v.113, p.295-302.
2. Hilberg O. Objective measurament of nasal airway dimensions using acoustic rhinometry: methodological and clinical aspects // Allergy, 2002, v.57, p.5-39.
3. Hilberg O, Jackson AC, Swift DL, Pederson OF. Acoustic rinometry: Evaluation of nasal cavity geometry by acoustic reflections // J Appl Physiol., 1998, v.66, p.295-303
4. Hol MKS, Huizing EH. Treatment of inferior turbinete pathology: a review and critical evaluation of the different techniques // Rhinology, 2000, v.38, p.157-166
5. İleri F. Burun ve Paranazal Sinüs Hastalıklarında Öykü ve Muayene. In: Çeliker O. (eds) Kulak Burun Boğaz Hastalıkları ve Baş Boyun Cerrahisi. İstanbul, Turgut Yayıncılık, 2002, p.339-356.
6. Gilain L, et al. Nasal cavity geometry measyred by acoustic rhinometry and computed tomography // Arch Otolaryngol Head Neck Surg., 1997, v.123, p.401-405
7. Grymer LF, Hilberg O, Pederson OF. Prediction of nasal obstruction based on clinical examination and acoustic rhinometry // Rhinology, 1997, v.35, p.53-57
8. Lai VWS, Corey JP. The objective assessment of nasal patency//Ear Nose Throat J.,1993,v.72, p.395-400.
9. Wuthrich B, Schindler C, Leuenberger P, et al. SAPALDIA-Team: prevalence of atopy in the adult population of Switzerland // Int Arch Allergy Appl Immunol., 1995, v.106, p.149-156.
10. Zeiders J, Pallanch JF, McCaffrey TV. Evaluation of Nasal Breathing Function With Objective Airway Testing // Otolaryngology Head and Neck Surgery, 2005, v.2, p.898-933

SUMMARY

THE INVESTIGATION OF THE OUTCOMES OF THE PARTIAL TURBINECTOMY BY ACOUSTIC RHINOMETRY

Yusubov S.I., Turan E.

11 of the patients (22 turbinates) with chronic nasal obstruction due to turbinate hypertrophy were treated by partial turbinectomy. Preoperatively and at the postoperative 6th week acoustic rhinometry was done. The patients were followed by weekly VAS(visual analoque scale) scores during postoperative 6 weeks. Postoperative acoustic rhinomety results were significantly higher than preoperative ones ($P<0.05$). VAS scores were significantly less than preoperative ones since first week (Wilcoxon signed ranks test, 1st-6th weeks $P=0.000$). In conclusion, our acoustic rhinometric results showed that, partial turbinectomy was effective in solving nasal obstruction problems.

Daxil olub:09.03.2010

К ВОПРОСУ О КОЛИЧЕСТВЕННОЙ МИКРОАНАТОМИЧЕСКОЙ ХАРАКТЕРИСТИКЕ ЖЕЛЕЗ МОЧЕВОГО ПУЗЫРЯ В ПОСТНАТАЛЬНОМ ОНТОГЕНЕЗЕ

Г.А.Гусейнова
Азербайджанский медицинский университет, г.Баку

Железистый аппарат мочевого пузыря, наряду с его внутриорганными сосудами, нервами, лимфоидной тканью, являются важнейшими структурными компонентами стенки этого органа. Его составляющие компоненты, однако, исследованы в разной степени, и в наименьшей, безусловно, - железы этого органа. Даже в относительно современных, но весьма подробных сводках по морфологическим дисциплинам имеются лишь краткие упоминания о железах этого органа [12].

Общеизвестна продуктивность макро-микроскопического подхода при исследовании желез слизистых оболочек полых внутренних органов пищеварительной, дыхательной систем, стенок моче-полового аппарата, кожи [11]. Макро-микроскопический подход, в сочетании с элективной окраской желез, позволяет изучить их анатомию и топографию на всем протяжении органа, синтопию желез и, в частности, взаимоотношения их с внутриорганными нервами, которые, как и железы, эффективно окрашиваются раствором метиленового синего [1,2,5,6,7,9]. Благодаря макро-микроскопическому подходу позволительно и доступно исследовать железы, вне зависимости от их органной принадлежности, объемно (в трехмерном пространстве, получать доказательную информацию о различных размерно-количественных показателях желез, их форме (экстерьере). Следует, однако, учитывать, что метод макро-микроскопии в отношении желез мочевого пузыря незаслуженно игнорируется и фактически не реализован. Известна лишь единственная работа, выполненная на тотальных препаратах мочевого пузыря с целью изучения его желез [13]. Это исследование выполнено, в основном, в сравнительно-анатомическом ключе, где описание желез приводится у рыб, земноводных, млекопитающих и др. Следует, также, отметить, что небольшое количество изученных случаев, наличие патологических изменений стенки органа (цистит, уретрит и др.), отсутствие каких-либо количественных подходов не позволяет считать, что вопрос о макро-микроскопических характеристиках желез мочевого пузыря человека решен, хоть в какой-то мере.

Вместе с тем, известно, что железы этого органа являются «анатомической базой» развития многих важнейших патологических процессов, реализация которых не только ухудшает качество жизни, но и имеет серьезнейшие медико-социальные последствия, являясь непосредственной угрозой для жизни. Доказано, что железистый эпителий служит источником формирования аденокарцином мочевого пузыря, аденом (имеющих тенденцию к малигнизации), задействован в патогенезе цистита и других заболеваний [3]. Кроме того, выводные протоки желез мочевого пузыря могут являться «входными воротами» для проникновения любого чужеродного антигенного материала из просвета мочевого пузыря вглубь стенки органа, т.е. во внутреннюю среду организма. Такими антигенами,вероятно, могут являться разнообразные микроорганизмы, включая патогенные (восходящая урогенная инфекция), частицы слущенного эпителия, другие субстанции, содержащиеся в моче даже здорового человенка [8].Эти инородные субстанции, как установлено, не всегда «вымываются» секретом желез, учитывая гетерохронность секреторного цикла, периодическое (например, инволютивное), ослабление секреции и другие факторы [4]. Отсутствие данных о нормальной анатомии желез мочевого пузыря, их количественных показателях не способствует лучшему пониманию гистофизиологии стенки этого органа, а также не позволяет адекватно провести соответствующие клинико-анатомические параллели, дать морфологическую базу урологам, хирургам и другим клиницистам для разработки рациональных схем профилактики и лечения разнообразных нозологических форм, связанных с изучаемым органом.

ЦЕЛЬЮ исследования явилось получение количественных данных о размерах начальных отделов желез в разных участках слизистой оболочки мочевого пузыря в возрастном аспекте.

МАТЕРИАЛ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. Гистологическим и морфометрическим методами [10] мы изучили микроструктурную организацию желез мочевого пузыря у людей разного возраста (114 наблюдений), без патологии органов моче-полового аппарата, при отсутствии конкрементов в просвете

мочевых органов. Продольные гистологические срезы, толщиной 5-7 мкм, окрашивали гематоксилином-эозином, пикрофуксином по ван Гизону. Подсчитывали количество начальных частей на срезе начального отдела, толщину его (при помощи окулярной линейки) и площадь (при использовании окулярной сетки). Морфометрическая обработка данных включала вычисление среднеарифметических показателей, их ошибок, достоверность различий оценивалась методом доверительных интервалов.

РЕЗУЛЬТАТЫ ИССЛЕДОВАНИЯ И ИХ ОБСУЖДЕНИЕ. Железы мочевого пузыря располагаются, по нашим данным, на всем протяжении его стенки, имеют начальные отделы и протоковый аппарат. У индивидуальной железы начальные отделы (от 1-го до 5-6) на срезе округлые, овальные, вытянутые, реже неправильной формы, не имеют капсулы. Начальные отделы находятся в толще слизистой оболочки, по соседству с ними почти постоянно определяются многочисленные клетки лимфоидного ряда, окружающие выводные протоки, располагающиеся непосредственно в строме начальных отделов, рядом с гландулоцитами, где они, видимо, осуществляют иммунный надзор за секреторным процессом (рис.1,2). Толщина начального отдела существенно с возрастом, достигая максимальных цифр в 1-м периоде зрелого возраста, когда значение этого показателя на протяжении стенки мочевого пузыря в 1,5-1,7 раза больше, чем у новорожденных детей (Таблица 1). Площадь начального отдела на срезе за этот период онтогенеза также увеличивается в 1,9-2,2 раза, а количество начальных частей (компактное образование из 15-20 гландулоцитов с общей базальной мембраной и полостью возле апикальных поверхностей клеток) – в 2,5-2,8 раза (Таблица 2). Максимальное развитие желез характерно в 22-35-летнем возрасте, так и для желез слизистых оболочек других полых (трубчатых) органов [9]. Далее постепенно начинается возрастная инволюция желе (Рис.3), проявляющаяся как уменьшение толщины их начальных отделов (Таблица 1), так и площади их на срезе и количества начальных частей (Таблица 2).




Рис. 1. Клеточный состав диффузной лимфоидной ткани в слизистой оболочке мочевого пузыря у девочки 19 лет. Микропрепарат. Дистальная треть мочевого пузыря. 1-малые лимфоциты (расположены парой); 2-макрофаг; 3-дегенеративная клетка лимфоидного ряда. Окраска гематоксилин - эозином. Ув. 800х.




Рис.2. Клетки лимфоидного ряда (диффузная лимфоидная ткань) вокруг общего выводного протока железы мочевого пузыря у девочки 19 лет. Микропрепарат. Дистальная треть мочевого пузыря. 1- выводной проток; 2 – диффузная лимфоидная ткань. Окраска гематоксилин - эозином. Ув. 250 х.

Таблица 1

Толщина начального отдела желез желчного пузыря (на гистологических препаратах) у человека в постнатальном онтогенезе (X±Sx; min-max, мкм)

Возраст	n	Толщина начального отдела желез, отдел желчного пузыря			
		Проксимальная треть	Средняя треть	Дистальная треть	Орган в целом
Новорожденные	9	30,0± 1,1 25,5-34,3	34,2± 1,3 26,2-37,3	36,1± 2,2 28,1-47,2	33,4± 1,1 26,1-35,0
Грудной	9	34,2± 1,4 26,5-37,8	36,5± 1,4 28,7-41,2	42,0± 2,5 29,2-50,0	37,6± 1,5 27,5-40,0
Ранний детский	8	34,9± 1,6 27,5-39,2	38,2± 2,8 29,5-50,1	44,2± 2,9 30,2-52,1	39,1± 2,8 29,5-50,1
1-й детский	8	36,4± 1,9 27,5-41,1	42,1± 3,1 29,5-52,1	46,2± 3,2 30,2-54,3	41,6± 2,9 30,1-52,1
2-й детский	8	42,1± 3,9 29,1-50,0	51,1± 3,3 32,4-56,6	52,1± 3,1 35,5-58,3	48,4± 3,5 31,2-56,6
Подростковый	8	42,3± 2,9 29,1-52,1	51,1± 2,0 42,4-56,6	58,1± 3,7 35,6-62,9	50,5± 2,0 42,4-56,6
Юношеский	9	42,3± 2,7 29,1-52,1	52,0± 1,8 42,4-56,6	58,1± 3,3 35,6-62,9	50,8± 1,7 42,4-56,6
1-й период Зрелого возраста	11	43,8± 2,8 30,1-58,2	54,2± 1,8 44,5-62,3	60,0± 3,7 39,1-76,2	52,7± 1,8 44,5-62,0
2-й период Зрелого возраста	11	42,1± 2,0 30,0-50,1	42,1± 2,7 30,0-56,6	49,6± 2,4 32,0-58,3	43,9± 2,4 30,0-54,2
Пожилой	11	20,0± 2,4 14,9-39,6	34,0± 2,5 24,0-39,7	43,2± 2,2 32,0-54,3	32,4± 2,5 24,8-39,5
Старческий	11	18,0± 1,6 15,3-30,8	30,5± 1,6 20,8-35,9	40,1± 2,8 24,1-52,1	29,5± 1,6 20,8-35,9
Долгожители	11	18,5± 1,6 15,3-30,8	32,2± 1,6 20,8-35,9	41,1± 2,8 24,1-52,1	30,6± 1,5 21,2-36,2

Примечание: n – число наблюдений.




Рис. 3. Начальные части и вставочные выводные протоки желез мочевого пузыря у женщины 87 лет. Микропрепарат. Средняя треть мочевого пузыря. 1 -ядро гландулоцита; 2 – контактная поверхность гландулоцитов; 3 – выводные протоки (вставочные) на поперечном их срезе; 4 – строма железы; 5 – полость возле апикальных поверхностей гландулоцитов (у начальной части); 6 – выводной проток (вставочный) на продольном срезе; 7 – базальная поверхность гландулоцита; 8 – ядро эпителиоцита выводного протока. Окраска по ван Гизону. Ув. 450х.

Таблица 2

Количество начальных частей в составе начального отдела (на продольном срезе) желез мочевого пузыря у человека в постнатальном онтогенезе (X±Sx; min-max,).

Возраст	n	Количество начальных частей, отдел мочевого пузыря			
		Проксимальная треть	Средняя треть	Дистальная треть	Мочевой пузырь в целом
Новорожденные	9	8,2± 0,7 6-12	10,7± 0,6 8-13	12,5± 0,7 8-14	10,5± 1,0 7-15
Грудной	9	9,5± 1,1 5-15	13,2± 0,8 9-16	16,8± 1,3 10-21	13,2± 1,1 7-17
Ранний детский	8	12,6± 1,3 8-18	16,4± 1,3 11-21	22,4± 1,3 16-26	17,1± 1,2 9-21
1-й детский	8	17,0± 1,5 11-22	17,8± 1,2 13-24	25,5± 1,6 17-29	20,1± 1,5 13-24
2-й детский	8	17,0± 1,7 11-24	19,9± 1,6 14-26	27,0± 1,9 19-34	21,3± 1,7 14-27
Подростковый	8	17,9± 2,2 13-30	22,3± 2,5 16-35	30,5± 2,3 21-39	23,6± 2,5 15-34
Юношеский	9	20,0± 2,0 13-30	24,6± 2,2 16-35	34,1± 2,3 23-43	26,4± 2,0 17-34
1-й период зрелого возраста	11	22,0± 1,9 13-32	26,2± 2,3 17-40	38,7± 2,5 24-49	29,0± 2,3 17-40
2-й период зрелого возраста	11	18,1± 2,2 10-32	24,0± 1,8 16-34	34,0± 2,0 22-42	25,4± 1,7 16-33
Пожилой	11	16,5± 2,0 9-29	20,0± 1,9 14-33	27,4± 2,4 14-38	21,3±1,9 13-32
Старческий	11	14,0± 1,3 7-20	18,0± 2,3 7-30	19,0± 1,3 7-20	17,0± 1,8 7-25
Долгожители	11	14,8±2,1 7-28	16,9± 2,2 7-29	18,8±2,1 7-28	16,8±2,0 7-27

Примечание: n – число наблюдений

Данные исследования указывают, что толщина начальных отделов и количество начальных частей в их составе у желез мочевого пузыря увеличиваются в проксимо-дистальном направлении, так как если в проксимальной части мочевого пузыря новорожденнего количество начальных частей желез составляет 30,0± 1,1 (25,5-34,3), то в дистальной части оно равно 36,1± 2,2 (28,1-47,2).

Показана также широкая индивидуальная изменчивость линейных и планиметрических показателей начального отдела желез мочевого пузыря, количества начальных частей железы, на уровне которых непосредственно осуществляется секреция. Размах индивидуальной изменчивости (различия между индивидуальным максимумом и минимумом) этих показателей увеличиваются на протяжении онтогенеза; в зрелом, пожилом и старческом возрастах эти различия больше, чем у детей.

Таким образом, в результате комплексных микроскопических и морфометрических исследований впервые представлены качественные и количественные данные и микроанатомия желез стенки мочевого пузыря человека: количество начальных частей в составе начального отдела, толщина начального отдела существенно изменяется с возрастом, достигая максимальных цифр в 1-м периоде зрелого возраста; количество начальных частей желез увеличиваются в проксимо-дистальном направлении; отмечается индивидуальная изменчивость линейных и планиметрических показателей начального отдела желез.

ЛИТЕРАТУРА

1. Allahverdiyev M.Q., Nikityuk D.B. Öd kisəsi və qaraciyərxarici öd yolları vəzilərinə və onların limfoid törəmələri ilə qarşılıqlı əlaqələrinə dair / Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının 90 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın elmi məqalələr toplusu. Bakı, 2009, s.58-59
2. Аллахвердиев М.К. Структурно - функциональная характеристика и закономерности морфогенеза же - лезистого и лимфоидного аппаратов внепеченочных желчевыводящих путей человека в постнатальном он-генезе: Автореф. дисс… док. мед. наук. Баку, 40 с.
3. Аль-Шукри С.Х., Ткачук В.Н. Опухоли мочеполовых органов. СПб.: Наука, 2000, 310 с.
4. Бабкин Б.П. Секреторный механизм пищеварительных желез. Ленинград: Наука, 1960, 777с.
5. Меджидов У.С.М. Макро-микроскопическая анатомия желез стенки общего желчного протока у людей разного возраста // Морфологические ведомости, 2009, Вып.1-2, с.114-115
6. Мирзоева С.Р. Макро-микроскопические особенности строения желез гортани у детей // Морфологические ведомости, 2009, Вып.1-2, с.117-119
7. Никитюк Д.Б., Сапин М.Р., Межидов У.С.М. Макро-микроскопическая анатомия и некоторые количес -твенные показатели желез общего желчного протока человека // Морфологические ведомости, 2009, Вып.1-2, с.37-39
8. Разумов А.Н., Пономаренко В.А., Пискунов В.А. Здоровье здорового человека (Основы восстановитель-ной медицины). М.: Медицина, 1996, 413с.
9. Сапин М.Р.,Никитюк Д.Б.,Шадлинский В.Б.,Мовсумов Н.Т. Малые железы пищеварительной и дыхатель- ной систем. М.: Элиста, АПП «Джангар», 2001, 134с.
10. Синельников Р.Д. Метод окраски желез слизистых оболочек и кожи. - В кн.: Мат. к макро-микроскопии вегетат. нервн. системы и кожи. Харьков, 1948, с.401-405
11. Синельников Р.Д. Железы слизистых оболочек пищеварительной и дыхательной систем в норме и эксперименте / Тез. Научно-практич. конф., посвящ. 100-летию курорта Березовск. Харьков, 1964, с.68
12. Хэм А., Кормак Д. Гистология. М.: Мир, 1983, Т.4, с.132-152
13. Чугай М.Е. Крипты и железистые образования мочевого пузыря человека и некоторых животных. / Матер. к макро-микроскопии вегет. Нерв. сис и желез слиз. обол. и кожи. М.: Медгиз, 1948, с.314-318.

SUMMARY

TO A QUESTION ON THE QUANTITATIVE MICROANATOMIC CHARACTERISTIC OF THE HUMAN URİNARY BLADDER GLANDS IN POSTNATAL ONTOGENESIS

G.A.Husejnova

The aim of the investigation was study of morphological peculiarities of the urinary bladder glands in postnatal ontogenesis. As object of research were the glands of the urinary bladder from 114 corpses of both sexes at the age from the newborn to the senile. The glands of the human urinary bladder was studied on the total preparations by Sinelnicov method. The glands were painted by 0,05% methylene blue solution and were investigated with the application of stereomicroscopic-binocular microscope MBS-9. Statistical data processing included calculation of arithmetic-mean values, their errors, a variation number, and also confidential intervals. As a result of complex microscopic and morphological researches the qualitative and quantitative data and

microanatomy of the wall of the human urinary bladder for the age is presented: the quantity of initial parts as a part of initial department, a thickness of initial department essentially changes with the years, reaching the maximum figures in 1st mature stage; quantity of initial parts of glands increase in proximo-distal a direction; individual variability linear and etc. indicators of initial department of glands is marked.

Daxil olub:06.04.2010

PROTEZLƏMƏDƏN SONRA YARANAN STOMATİTLƏRİN ETİOLOGİYASI, MÜALİCƏSİ VƏ PROFİLAKTİKASI

H.Ö.Şirəliyev
Azərbaycan tibb universiteti, Bakı

Diş-çənə protezlənməsinin əsas məqsədi – çeynəmə funksiyasının, estetikanın və fonetikanın bərpasıdır. Bu zaman protezlər ağız boşluğu toxumalarına heç bir qıcıqlandırıcı və dağıdıcı təsir göstərməməlidirlər [1,4,7]. Təəssüf ki, bu məqsəd heç də həmişə həyata keçirilmir, belə ki, müxtəlif diş protezləri keyfiyyətsiz hazırlandıqda dişlərə, parodont toxumalarına mənfi təsir göstərir, müxtəlif ağırlaşmalar törədir [2,3,8].

Protezlərin hazırlanmasında istifadə olunan protez materialları da belə təsirlərə malikdir [5,6].

Apardığımız tədqiqatların MƏQSƏDİ aparılan ortopedik stomatoloji yardımın keyfiyyətini aşkara çıxarmaqdan, istifadə olunan materialların yararlılıq dərəcəsini müəyyən etməkdən ibarət olmuşdur.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Bu problemi biz ağız boşluğu hərtərəfli vizual və instrumental müayinədən keçirilmiş 686 nəfər (321 kişi, 365 qadın) arasında öyrənmişik. 328 nəfərdə (47,8±1,9%), o cümlədən 131 kişi (40,8±2,7%) və 137 qadında (54,0±2,6%) müxtəlif tipli diş protezləri olmuşdur.

Müxtəlif növ diş protezlərinin hazırlanmasında istifadə olunan konstruksiya materiallarının parodont toxumalarına göstərdiyi mənfi təsirləri stomatitlər adı altında birləşdirmək qəbul edilmişdir və bunlar da toksik, bakterial və allergik stomatitlərə ayrılmışdır.

TƏDQİQATIN NƏTİCƏLƏRİ VƏ MÜZAKİRƏSİ. Müşahidələrimiz göstərmişdir ki, stomatitlərin müxtəlif növlərini heç də həmişə diferensasiya etmək mümkün olmur, ona görə də biz onları «çətin müəyyən olunan» qrupa ayırmışıq (Cədvəl 1).

Cədvəl 1

Protezlərin hazırlandığı material	Hadi-sə-lərin sayı	Stomatitlərin müxtəlif formalarının tezliyi									
		Toksik		Bakterial		Allergik		Çətin müəy-yən olunan		Cəmi	
		müt.	%	müt.	%	müt.	%	müt.	%	müt.	%
Metal-keramika	53	4	7,5± 3,7	16	30,2± 6,3	17	32,1± 6,5	2	3,8± 2,7	39	73,6± 6,1
Metalplastik	44	4	9,1± 4,4	12	27,2± 6,8	15	34,1± 7,2	3	6,8± 3,8	34	77,3± 6,4
Qızıl	65	3	4,6± 2,6	10	15,4± 4,5	17	26,2± 5,5	-	-	30	46,2± 6,2
Titan-nitrid	54	3	5,6± 3,2	14	25,9± 6,0	16	29,6± 6,3	3	5,6± 3,2	36	66,7± 6,5
Akril-plastik	112	28	25,8± 1,8	10	8,9± 2,7	13	11,6± 3,0	4	3,6± 1,8	55	49,1± 4,7
Müxtəlif materialların kombi-nasiyası	129	29	22,5± 3,7	11	8,5± 2,5	14	10,9± 2,8	4	3,6± 1,8	58	44,5± 4,4
Cəmi	328	42	12,8± 1,8	62	18,9± 2,2	78	23,8± 2,4	12	3,7± 1,0	194	59,1± 2,7

Cədvəldən göründüyü kimi, müxtəlif diş protezləri materialları tərəfindən törədilən stomatoloji xəstəliklərin faizlə miqdarı çox yüksək olmuşdur – 59,1±2,7%.

Təhlillər göstərir ki, stomatitlərin toksik formasının tezliyi orta hesabla 12,8±1,8% təşkil edir. Bakterial stomatitlərin tezliyi isə bir qədər yüksəkdir – 18,9±2,2%. Stomatitlərin allergik formasının tezliyi isə daha yüksək olmuşdur – 23,8±2,4%. Çətin müəyyən olunan stomatitlər isə 3,7±1,0% təşkil etmişdir.

Əlbəttə, stomatitlərin adları çəkilən formalarının heç də hamısı diş protezləri ilə əlaqədar ola bilməz, çünki parodontun bir çox iltihabi prosesləri də buna oxşar formada keçir. Lakin stomatitlərin belə yüksək tezliyi onların inkişafında məhz diş protezi materiallarını etioloji amil hesab etməyə əsas verir.

Təhlilin ikinci variantı göstərir ki, qızıl və akril plastik kütlələr, həmçinin, onların kombinasiyası az dərəcədə stomatitlər törədir – 44,5±4,4%-dən 49,1±4,7%-ə qədər, nəinki metalkeramik, metalplastik və titan-nitrid – 66,7±6,5%-dən 77,3±6,4%-ə qədər. Nəzərə alsaq ki, qızıl və akril plastik diş-çənə protezlənməsində daha çox istifadə olunur, onların parodont toxumasına mənfi təsirinin az olması digər konstruksiya materialları qarşısında açıq-aşkar üstünlüyünü göstərir. Bu materialların mənfi təsirlərinin daha da azaldılmasına dair üsulların axtarılması müasir stomatologiyanın vacib məsələlərindəndir.

Cədvəlin məlumatlarının təhlilinin üçüncü variantı xüsusilə maraqlı və əhəmiyyətlidir. Metalkeramika, metalplasmas, qızıl və titan-nitrid örtüklü protezlərin toksik təsirinin göstəriciləri 4,6±2,6% ilə 9,1±4,4% arasında tərəddüd edir, halbuki, bu göstəricilər akril plasmasdan hazırlanmış tam və hissəvi çıxan protezlərdə xeyli yüksəkdir, müvafiq olaraq 22,5±3,7% və 25,0±1,8%. Akril plasmasların belə təsiri akrilatdan olan bazisdə sərbəst monomerlərin artıq miqdarda olması ilə əlaqədardır ki, bu da öz kimyəvi təbiətinə görə metakril turşusunun metil efiridir. Bütün efirlər isə, məlum olduğu kimi, ağız boşluğunun selikli qişasına qıcıqlandırıcı təsirə malikdir, yüksək qatılıqlı monomer isə protoplazmatik zəhərdir. Körpüyəbənzər protezlərin plamas örtüklərinin bazisində monomerin artıq olması texnologiyanın, o cümlədən, polimerləşmə rejiminin pozulması zamanı yaranır. Sərbəst monomer plasmas köhnəldikdə də əmələ gələ bilər ki, bu zaman onda depolimerləşmə gedir. Toksik stomatitlərin profilaktikası polimerləşmə rejiminə əməl edilməsindən ibarətdir. Buradan akril plasmasdan texniki diş konstruksiyalarının hazırlanmasının keyfiyyət parametrlərinin zəruriliyi meydana çıxır.

Stomatitlərin bakterial formasının bir sıra göstəriciləri Van-der-Varden meyarına görə statik cəhətdən dürüst surətdə onların toksik formasının bir sıra göstəricilərindən yüksəkdir. Metalkeramika, metalplasmas və titan-nitrid örtüklü diş protezləri hazırlayan zaman bu forma daha çox müşahidə edilir – 25,9±6,0%-dən 30,2±6,3%-ə qədər. Bizim fikrimizcə, bunun səbəbi odur ki, bu konstruksiya materiallarından bəziləri tez sürtülür, bizəlrində tez bir zamanda mikroçatlar, qopmalar müşahidə edilir ki, bu da mikroorqanizmlərin adheziyasını və inkişafını asanlaşdırır. Eyni zamanda yaxşı cilalanmış akril plastmasdan olan protezlərə gigiyenik qulluğun nisbətən asan olması mikroorqanizmlərin adheziya imkanlarını azaldır, ona görə də stomatitlərin bakterial forması bu material və onun digərləri ilə kombinasiyası zamanı az dərəcədə inkişaf edir – müvafiq oaraq 8,9±2,2% və 8,5±2,5%. Qızıl bu cəhətdən orta mövqe tutur – 15,4±4,5%.

Van-der-Varden meyarının dürüst qiymətinə görə stomatitlərin allergik forması göstəricilərinin sırası daha əhəmiyyətlidir. Metalkeramika, metalplasmas, qızıl və titan-nitrid örtüklü qapaqların hazırlanması zamanı onlar daha çox müşahidə edilir – 26,2±5,5%-dən 32,1±6,5%-ə qədər. Bu materiallar öz-özlüyündə allergik deyildir, lakin yeyildikcə, orqanizmin zülalları ilə kimyəvi reaksiyaya girərək, qaptenlər adlanan allergiya törədən maddələrin ayrılması mənbəyinə çevrilməklə, belə xüsusiyyətlər qazanırlar.

Tədqiqatlarımız zamanı müəyyən etmişik ki, əvvəllər daha çox allergik hesab edilən akril plasmas materiallardan hazırlanmış protezlər və onların kombinasiyaları hazırlanma texnologiyalarına düzgün əməl edildikdə daha az allergik olurlar – müvafiq olaraq 11,6±3,0% və 10,9±2,8%. Allergiyanın belə forması zamanı ənənəvi antiallergik preparatlar patoloji əlamətlərin müvəqqəti aradan qalxmasına gətirib çıxarır, lakin sonradan onların residivləri baş verir ki, bu da çox vaxt diş protezlərinin sonrakı istifadəsi üçün əngələ çevrilir. Lakin

konstruksiya materiallarının allergik təzahürləri, diş protezləri instruksiyaya uyğun düzgün hazırlandıqda xüsusilə çox müşahidə edilir.

Beləliklə, diş protezlərinin mükəmməl olmaması, onların keyfiyyətsiz hazırlanması, konstruksiya materiallarının düzgün seçilməməsi dişlərə və parodont toxumasına mənfi təsirlərin tam kompleksini yaradır ki, bu da nəticədə yenidən protezləməyə gətirib çıxarır, yəni şəhər əhalisinin ortopedik stomatoloji protezləməyə «ikincili» ehtiyacı yaranır.

ƏDƏBİYYAT

1. Дьяконенко Е.Ф. Дефекты керамики: виды, причины возникновения, пути исправления // Новое в стоматологии, 2002, №8, с. 58-69.
2. Покровская И.Я., Сутутина Т.Ф., Пешкина М.Г. 60 лет с момента отечественных акриловых материалов для стоматологии. История развития и перспективы // Стоматология, 2002, №9, с. 64-66.
3. Стрельников В.Н. Повторное ортопедическое лечение пациентов после удаления искусственных опор / Труды 6-го съезда РАС. М., 2000, с. 383-385.
4. Трезубов В.А. Особенности развития современных съемных протезов / Труды 6-го съезда РАС. М., 2000, с. 407-408.
5. Трезубов В.А,, Штейкарт М.З., Мишиев Л.М. Ортопедическая стоматология. Прикладное металловедение. Санкт-Петербург, 2001, с.351.
6. Хоменко Л.А., Биденко Н.В., Остапко Е.И., Шматко В.И. Современные средства экзогенной профилактики заболеваний полости рта. Киев, 2001, 208 с.
7. Худоногов Г.Н., Павлов В.А, Возможности применения безметаллических зубных протезов из керамики // Новое в стоматологии, 1995, № 2, с. 14-16.
8. Турушев Е.И., Ибрагимов Т.Н., Ларионов В.М. Применение съемных протезов с титановыми базисами больного сахарным диабетом / Труды 6-го съезда РАС. М., 2000, с. 411-413.

SUMMARY

AETIOLOGY, TREATMENT AND PREVENTION OF STOMATITISES CAUSED BY DENTAL PROSTHESIS

H.O.Shiraliyev

686 patients, including 328 with dental prosthesis have been examined. It is revealed, that some orthopedic materials negatively influence on oral cavity tissue and form stomatitises: toxic, bacterial, allergic. It is recommended to use modern materials for dental prosthetics.

Daxil olub:04.03.2010

DİŞ PROTEZLƏNMƏSİNİN MÜASİR ASPEKTLƏRİ

H.Ö. Şirəliyev, F.R.Səfərəliyev
Azərbaycan tibb universiteti, Bakı

Müasir stomatologiyanın ən aktual problemləri diş və ağız boşluğu toxumalarının profilaktikasını təşkil etməkdən, xəstəliklərin erkən diaqnostikasını müəyyənləşdirməkdən və xəstələri vaxtında və keyfiyyətli protezlərlə təmin etməkdən ibarətdir. Yerli və xarici ədəbiyyatların təhlili göstərir ki, ağız boşluğu toxumalarının profilaktikasının düzgün təşkil edilməməsi, iltihabi və destruktiv proseslərin genişlənməsinə səbəb olur ki, bu da bir çox hallarda dişlərin erkən itirilməsinə gətirib çıxarır [1,3,5]. Hazırlanmış protezlərin tələbatlara cavab verməməsi, onların konstruksiyalarının düzgün seçilməməsi, tərkibində qalan plastik materialların monomerlərinin toksiki təsiri ağızda yaranmış vəziyyəti daha da ağırlaşdırır, monomerlərin toksiki təsiri isə orqanizmin xroniki zəhərlənməsinə, qanın, limfanın, biokimyəvi dəyişikliyinə gətirib çıxarır [2,7,8].

Dünyanın bir çox ölkələrində aparılmış epidemioloji nəticəsində müəyyən edilmişdir ki, üz-çənə sistemi patologiyaları arasında ən geniş yayılanı diş sıralarının ikincili adentiyasıdır/ [8,9] Və eyni zamanda müəyyən edilmişdir ki, hissəvi adentiyaların müxtəlif növ protezlərlə bərpası nəinki bu problemin aradan qalxmasına səbəb olmur, eyni zamanda parodont toxumalarının patoloji proseslərə qoşulması nəticəsində ikincili adentiyaların miqyası daha da genişlənir. Protez materiallarının bioloji uyğunsuzluğu, qalıq monomerlərinin qıcıqlandırıcı və toksik təsirləri bir çox hallarda protezlərdən istifadəni mümkünsüz edir [4,6,8].

Müasir dövrdə yeni stomatoloji texnologiyaların və materialların tətbiqinə baxmayaraq, protezləmədən sonra yaranan iltihabi və destruktiv proseslər, o cümlədən protez

materiallarının yararsızlığı bu sahədə müalicə-profilaktika işlərinin genişləndirilməsini, ağız və diş toxumalarına bioloji uyğun yeni materialların tətbiqini zəruri etmişdir [3,7,9].

Bütün bu göstərilənlər diş-çənə sistemi patologiyalarının yayılmasının, göstərilən ortopedik stomatoloji yardımların keyfiyyətinin, istifadə olunan materialların yararlığının elmi tədqiqatının aparılması zərurətini ortaya çıxarır. Bu məsələlər bütün dünyada araşdırıldığı kimi, bizim respublikamızda da daim diqqət mərkəzində saxlanılır.

Tədqiqatın MƏQSƏDİ – istifadə olunan protezlərin yararlılıq dərəcəsinin müəyyən edilməsindən, müxtəlif materialların mənfi təsirlərinin aşkar edilməsindən ibarət olmuşdur.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Tədqiqatlar zamanı əvvəllər ortopedik stomatoloji yardım almış 1090 nəfər Bakı şəhəri əhalisi müayinə edilmişdir. Müəyyən edilmişdir ki, protez gəzdirən əhalinin 55,6%-i keyfiyyətsiz hazırlanmış və yaxud uzun müddət istifadə edildiyi üçün yararsız hala düşmüş müxtəlif konstruksiyalı protezlərdən istifadə edir. Bunların 32,3%-i protezlərin konstruksiyalarının düzgün seçilməməsi nəticəsində, 23,3%-i isə müxtəlif texniki səhvlər, protez materiallarının yararsızlığı və uzun müddətli istifadə nəticəsində diş-çənə sisteminə dağıdıcı təsir göstərirlər. Protez gəzdirən əhalinin 15,4%-nin əlavə protezləməyə ehtiyacı olduğu müəyyən edilmişdir. Belə ki, bu qrupdan olan əhalinin ağız boşluğunda olan müxtəlif konstruksiyalı protezlər ortopedik tələbatlara cavab versə də, diş-çənə sistemində baş verən digər xəstəliklər və qüsurlar əlavə protezlərin hazırlanmasına ehtiyac yaradır. Protez gəzdirən əhalinin yalnız 29%-də göstərilən ortopedik stomatoloji yardımın bütün tələbatlara cavab verdiyi müəyyən edilmiş və onların istər təkrari, istərsə də əlavə protezlənməyə ehtiyacı olmamışdır.

ALINMIŞ NƏTİCƏLƏR VƏ MÜZAKİRƏSİ. Hər 100 nəfər protezgəzdirən şəxslərin 32,3 nəfərində protezlərin protez sahəsinə və ətraf toxumalara patoloji təsir göstərdiyi, 21,7 nəfərdə isə selikli qişa xəstəlikləri törətdiyi aşkar edilmişdir. Süni qapaqların diş əti cibinə çox dərin daxil edilməsi, onların diş əti üzərində oturdulması, körpüyəbənzər protezlərin aralıq hissələrinin selikli qişa üzərində oturması, çıxan protezlərin sərhədlərinin düzgün təyin edilməməsi ağırlaşmalara səbəb olan əsas səhvlərdir.

Tədqiqatlar zamanı hissəvi və tam çıxan protezlərin yararlılıq dərəcəsi də öyrənilmişdir. Bu protezlərin bəzisi sərt akril plastik kütlədən hazırlandığı üçün adətən protez yatağı selikli qişasına travmatik təsir göstərir və çeynəmə aparatında və gicgah-çənə oynağında ağrılara səbəb olur. Bu səbəbdən də protezgəzdirən şəxslərin 20%-dən çoxu hazırlanmış protezlərdən istifadə etmirlər və ya nadir hallarda istifadə edirlər. Protezlərin travmatik təsiri nəticəsində ağızın selikli qişasında və sümük toxumalarında atrofiya prosesləri sürətlənir, protezlərin fiksasiya və stabilizasiyası zəifləyir.

Çıxan protezləri gəzdirən şəxslərin 20,55%-i protezlərin narahatlığından və çeynəmə zamanı ağrılardan şikayət edirlər. Bunun əsas səbəbləri dişləmin hündürlüyünün düzgün təyin edilməməsi, süni dişlər arasında bərabər təmasın olmaması və laborator mərhələlərdə buraxılan səhvlərdir. Məlumdur ki, protezlərin keyfiyyətli hazırlanmasında onların fiksasiya və stabilizasiyası mühüm rol oynayır. fiksasiya və stabilizasiyanın pozulması həm protez sahəsinin selikli qişasının zədələnməsinə səbəb olur, həm də dayaq dişlərinin əlavə yüklənməsinə və yan təzyiqlərə məruz qalmasına gətirib çıxarır. Nəticədə dayaq dişləri laxlayır və onların çəkilməsi ehtiyacı meydana çıxır. Bu səbəbdən protezlərin yararsızlığı müayinə olunan şəxslərin 51,94%-də müşahidə edilmişdir. Laboratoriyada akril plastik protezlərin hazırlanması zamanı aşağı keyfiyyətli gipsdən istifadə edilməsi, plastik kütlənin primitiv üsullarla keyfiyyətsiz preslənməsi protez bazisinin məsaməli və qeyri-gigiyenik olmasına gətirib çıxarır. Nəticədə protezin bazisi müxtəlif mikroblar və onların həyat məhsulları ilə çirklənir. Bu isə həm dayaq dişləri ətrafında sümük toxumasının atrofiyasını sürətləndirir, həm də ağız boşluğu toxumalarına qıcıqlandırıcı və iltihablaşdırıcı təsir göstərir. Mikroorqanizmlərin həyat fəaliyyəti nəticəsində əmələ gələn toksiki maddələr parodont toxumasından keçərək qana sorulur və bütün bədənə yayılır. Nəticədə orqanizmin immun sistemi zəifləyir, mikroorqanizmlərin həyat fəaliyyəti məhsullarının qanda və limfada miqdarı artır. Limfa düyünləri böyüyür, qan damarları divarlarında daralmalar əmələ gələ bilir. Protezlərin bu cəhətdən yararsızlığı protezgəzdirən şəxslərin 16,11%-də müşahidə edilmişdir. Protez bazisinin qalın hazırlanması həm dodaq və yanaqların daim gərgin vəziyyətdə qalmasına, həm də dilin hərəkət amplitudasının azalmasına səbəb olur. Belə protezləri

gəzdirən şəxslər daim özlərini narahat hiss edirlər və protezlərə öyrəşə bilmirlər. Belə yararsız protezlər müayinə olunan şəxslərin 9,72%-də müşahidə edilmişdir.

Protez bazisinin və dişlərin rənginin dəyişməsi, protezlərin hazırlanması texnologiyalarının pozulması, sınmış protezlərin bərpası, soyuq polimerləşmələr və bazisin yeniləşdirilməsi nəticəsində bazisin allergik və kimyəvi qıcıqlandırıcı təsiri artır. Protezin tərkibində qalmış qalıq monomerlər tam polimerləşə bilmir və ağız suyuna qarışır. Sonra isə udularaq bədəndən qana və limfa sisteminə sorulur. Sonda qalıq monomerlər insan orqanizmi hüceyrələrinin protoplazmasına daxil olaraq onları degenerativ dəyişikliyə uğradır. Bu isə öz növbəsində orqanizmin tədricən xronik zəhərlənməsinə gətirib çıxarır. Belə yararsız protezlər protezgəzdirən şəxslərin 17,77%-də müşahidə edilmişdir.

Bundan başqa, protezlərdə olan çatlamalar, keyfiyyətsiz bərpa etmələr, cilalama və pardaxlamanın zəif olması, dişlərin sürtülməsi, qarmaqların sınması, süni dişlərin qopması da protezlərin yararsız hala düşməsinə səbəb olan amillərdəndir.

Ümumilikdə hissəvi və tam çıxan akril plastik kütlədən hazırlanmış protezgəzdirən şəxslərin 63,33%-i protezlərin yararsızlığından, narahatlığından şikayət etmişlər və onların təkrari protezləməyə ehtiyacı olduğu müəyyənləşdirilmişdir.

NƏTİCƏ. Bütün bu göstərilən çatışmazlıqlardan və ağırlaşmalardan belə nəticəyə gəlmək olar ki, protezlərin yararsızlığının əsas səbəbləri bir tərəfdən onların düzgün hazırlanmaması və uzun müddət istifadə edilməsidirsə, digər tərəfdən istifadə olunan materialların özünün günün tələbatlarına cavab verməməsi və ya tez sıradan sıxmasıdır. Odur ki, müasir stomatologiyada alternativ diş protezləri materiallarından istifadə edilməsi ideyası daha da aktuallaşır. Monomersiz bazis materiallarının tətbiqi, onların qıcıqlandırıcı təsirinin azaldılması, keyfiyyətini uzun müddət saxlaması üçün bioloji uyğun materiallardan istifadə edilməsi tövsiyə edilir.

Ağızda yaranmış patoloji proseslərin tənzimlənməsi üçün təbii-müalicəvi-profilaktik vasitələrdən istifadə edilməlidir. Bitki tərkibli dərman preparatlarından, profilaktik mineral sulardan və bitki cövhərlərindən istifadə edilməsi müsbət effekt verə bilər.

Azərbaycan təbabətində dərman bitkiləri kimi ad çıxarmış çaytikanı, itburnu, nanə, zəfəran, zeytun və s. bitkilərdən hazırlanmış mikroelementlərlə zəngin antimikrob təsirli preparatlar həm parodont xəstəliklərinin müalicəsində, həm də profilaktikasında geniş istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Гожая Л.Д. Аллергические заболевания в ортопедической стоматологии. М., Медицина, 1988, 160 с.

2. Дойников А.И. Зуботехническое материаловедение. М., 1986

3. Йолов Ц.Й. Частота удалений различных зубов у лиц в возрасте от 35 до 44 лет // Стоматология, 2001, № 6, с. 25-27

4. Каменев В.В. Роль физико-химических свойств пластмасс в этиологии протезных стомпатологий: Автореф. дис. … канд. мед. наук. Днепропетровск, 1973, 19 с.

5. Керимов Э.Э., Тагиев А.И., Сафаров А.М. и др. Протезирование металлокерамическими протезами при пародонтитах / Достижения медицинской науки и практического здравоохранения Азербайджана. Сборник научных трудов по материалам XI Республиканской научной конференции. Баку, 2000, III том, с. 54-57

6. Копейкин В.А. Ошибки в ортопедической стоматологии. М., Медицина, 1977, 176 с.

7. Онушко В.Р. Системная концепция пародонтита // Новое в стоматологии, 1999, № 1, с. 13-29.

8. Тагиев А.И. Отдаленные результаты восстановления зубного ряда как профилактика поражения пародонта // Sağlamlıq, 1996, № 8, s. 34-36.

SUMMARY

MODERN ASPECTS OF PROSTHETICS

G.O. Shiraliev, F.R.Safaraliev

1090 persons in Baku have been examined. Negative influences of various designs of dental prosthesis on teeth tissues and periodontium and their suitability to use have been studied. It is revealed, that 55,6 % of the examined patients use unusable dental prosthesis. Besides, basic materials of old dental prosthesis possess toxic and allergic actions. It is recommended to use more modern designs of dental prosthesis and basic materials.

Daxil olub:04.03.2010

PRAKTİK HƏKİMƏ KÖMƏK- ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

HAMİLƏLİYƏ QƏDƏR VƏ HAMİLƏLİK ZAMANI VİRUSLU VƏ YA BAKTERİAL İNFEKSİYALI QADINLARIN MÜASİR MÜAYİNƏ ÜSULLARI

F.R.Hacıyeva
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi- tədqiqat Mamalıq və Ginekologiya institutu, Bakı

Müasir təbabət, eləcə də mamalıq və perinatalogiyanın ən vacib problemlərindən biri viruslu və bakterial infeksiyalarla mübaricədən ibarətdir ki, onların tezliyi dayanmadan artmaqdadır. İnfeksion xəstəliklər daha çox əhəmiyyət kəsb etməkdədir.

Qadınların müxtəlif infeksiyalara yoluxması əsasən reproduktiv yaş dövrünə təsadüf edir, eləcə də hamiləlik dövründə də tez- tez rast gəlinir. Çoxsaylı infeksion xəstəliklər zamanı hamiləliyin pozulması, vərdişi düşüklərin baş verməsi kimi hallar baş verə bilər.

Bu xəstəliklərin inkişafı əsasən immun çatışmamazlığı şəraitində mümkündür (genital herpes, sitomeqalovirus infeksiya və s.), ekoloji vəziyyətin pisləşməsi, həyat ritminin sürətlənməsi, stress vəziyyətinin artması, dərman preparatlarının qeyri- rasional təyinatı immun çatışmamazlığının artmasına səbəb olur. Fizioloji immunsupressiyanın klassik modeli hamiləlikdən ibarətdir.

İnfesiya ilə hamiləliyin yanaşı getməsi xüsusilə xoşagəlməzdir və analıq xəstəliyinin və ölümünün artması ilə müşayət olunur.

İstənilən infeksian genezli hamiləlik ağırlaşmaları, eləcə də düşüklərin baş verməməsi üçün problemini qarşısın qabaqcadaq almaq lazımdır. Bunun üçünsə ən vacib şərt düzğün və vaxtında müayinənin aparılmasıdır.

Kəskin və xronik infeksiyalar hamiləliyin gedişatından ciddi və ağırlaşmalara səbəb olur (öz-özünə düşük, inkişafdan qalan hamiləlik, dölün inkişaf qüsurları, vaxtından əvvəl doğuşlar və s.).

Perinatal infeksiyaların törədicilərinin spektri genişdir. Əsl törədicilərə qızılca, sitomeqolavirus, sadə herpes, Koksak, hepatit B virusu, adenovirus, insanın immun çatışmamazığı virusu, listeriya, trepanema bakteriyaları, tuberkulyoz mikobakteriyası (nadir hallarda), xlamidium aiddir. Hamilələrdə bir çox şərti- patogen mikroflora (E coli strepto- və stafilokokklar, klebsiella, ureaplazma), təkhüceyrəlilər (toksiplazmoz, malyariya törədiciləri), eləcə də Candida cinsindən olan göbələklərin səbəb olduğu infeksion xəstəliklər də ağırlaşmalara gətirib çıxara bilər.

Viruslu və ya bakteriyalı infeksiyalarla mübarizəyə başlamazdan əvvəl onların vaxtında və düzgün diaqnostikası böyük əhəmiyyət kəsb edir. Sonuncu mamalıq praktikasında iki mərhələdə aparılır: hamiləlik planlaşdırılmazdan əvvəl, hamiləlik zamanı.

Birinci mərhələdə aşağıdakı tədbirlər aparılmalıdır:

1. Anamnezin dəqiqliklə toplanması və infeksiya üzrə risk qrupu xəstələrin aşkar edilməsi. Hər şeydən əvvəl xəstənin və onun ərinin (tərəfdaşının) yaşı, əmək və məişət şəraiti, qidanın xüsusiyyəti, peşəkar zərərlərin və zərərli vərdişlərin (siqaret çəkmə, alkohollu içkilərin qəbulu, həddindən artıq kofeinin qəbulu və s.), irsiyyət, somatik, allerqolik, mamalıq-ginekologiya anamnezin göstəriciləri müəyyən olunur. Cinsiyyət orqanlarının xronik iltihabi xəstəliklərin (residivləşən kolpit, xronik endometrit, salpinqooforitlər əv s.) olub- olmasına, uşaqlıqdaxili kontraseptivlərin müddətinə xüsusi diqqət ayrılır. Sidik ifrazı, tənəffüs, həzm sistemi və başqa orqanlarda xronik iltihabi proseslər və başqa ekstragenital xəstəliklərin olub- olmaması xüsusi əhəmiyyət kəsb edir. Əvvəlki hamiləliklər (öz-özünə düşüklər, inkişafdan qalan hamiləlik, plasentar çatışmamazlıq, dölün bətndaxili inkişafdan qalması və s.) haqqında da məlumatlar toplanır.

2.Yüksək infeksiya riski olan cütlüklərin klinik- laborator müayinəsi. Onu ginekoloq və androloq müştərək aparırlar. Buraya standart, spesifik və əlavə müayinə metodları daxildir.

İlkin olaraq qadınların şikaytləri müəyyən olunur, ümumi və ginekoloji baxış aparılır.

Standart müayinə metodlarına aiddir: qan qrupunun, rezus- faktorun, qrup və ya antrezus anticisimlərin, RW, HİV, HBS və HCV-antigenlərə seroloji sınaqların təyin olunması, qadının qanının və sidiyinin klinik müayinəsi, üşaqlıq yolları yaxmasının mikroskopiyası.

Kiçik çanaq orqanlarının ultrasəs müayinəsi də aparılır.

Yüksək infeksion riski olan qadınlarda bakterial və ya viruslu infeksiyaların olub-olmaması ilə bağlı müayinədən mütləq keçməlidirlər. Belə patologiyadan əziyyət çəkən qadınların bakterial və virus infeksiyasının aktivlityini öyrənmək vacibdir. Qadın orqanizminin infeksiyaya yoluxması birincili və ikincili ola bilər. Buna uyğun olaraq xəstəliyin gedişi kəskin və xronik formalarda müşahidə olunur. Aparılan diaqnostik testldərdə xəstəliyin kəskin gedişatı zamanı qanda infeksiyalara qarşı İgM, xronik gedişlərdə isə İgG anticismləri aşkar olunur.

İstər kəskin, istər də xronik infeksiyanın yaranması həmişə hemostazın dəyişikliyi ilə müşahiəd olunur, ona görə də xəstəliyin düzgün müalicəsi üçün hemostazın bütün göstəricilərinin nəzarətdə saxlanması vacibdir.

Birincinin aşkar olması üçün servikal kanaldan və uşaqlıq yollarının arxa mənfəzindən götürülmüş yaxmanının əkməsinin mikrobioloji müayinəsi aparılmalıdır. Sidik ifrazatı, tənəffüs yolları, həzm sistemi orqanlarının iltihabi xəstəlikləri zamanı bioloji mayelərin (sidik, bəlgəm, ağız suyu və s.) bakterioloji müayinələri aparılır.

Viruslu infeksiyanın diaqnostikası üçün aşağıdakı metodlardan istifadə olunur:

1. Virusoloji metod. Kulturaların alınması üçün materiallar servikal kanaldan ayrılan qan, ağız suyu, sidik ola bilər. İnterpretasiya üçün daha çətin müayinə obyekti sidikdən ibarətdir, çünki virusuriya çox vaxt xəstəliyin simptomsuz gedişatı zamanı müşahidə olunur. Viruslu infeksiyanın dürüst əlaməti viremiyadır. Ona görə də qanda virusların identifikasiyası əsas virusoloji metod hesab olunur. Onun aşatıdakı variantları məlumdur:

a) Ənənəvi aşkarlama. Kulturlaşma diaqnostikanın dürüst və həssas metodu hesab olunur. Lakin metod materialların çatdırılması üçün zaman kəsiyinə dəqiqliklə riayəi olunmasını tələb edir, uzun müddət vaxt sərf olunur (2 aya qədər), baha başa gəlir. Bu baxımdan metod praktik cəhətdən əhəmiyyətli deyildir; b) qişaya metod- monolokal anticisimlərin köməkliyi ilə erkən viruslu antigenlərin müəyyən olnması ilə virusun kulturlaşmasının ekspress metodu. Yerinə yetirilmə metodu 24-48 saat, həssaslıq 85%. v) Ayrılmış virusların həssaslığının artması üçün əvvəlcədən toxuma kulturlarının sensibilləşməsi.

2. Sitoloji metod- sadə və əlverişlidir, onun həssaslığı 50%- dir. Ağız suyu, sidik, süd və başqa seliklərin çökmələrinin Papanikolau üzrə rəngələmədən sonra sitoskopik müayinəsi mümkündür. Yaxma uşaqlıq yollarının selikli qişasından və servikal kanaldan götürülür. Metodun çatışmamazlığı invaziv prosedurlarının aparılmasına ehtiyacın olmasıdır. Bunun üçün əvvəlcədən zədələnmə sahəsi təyin olunmalıdır ki, bu da dessiminasiya olunmuş proses zamanı mümkündür.

3. Sero-immunoloji metod. Onun bütün variantlarından spesifik anticisimlərin təyin olunması üçün (immun cavabın baş verməsi) hər şeydən əvvəl immunferment analiz (İFA) metodu tətbiq olunur. Onun həssaslığı 99%, spesifiklik 95%- dir. Həmin metod virusun olması haqda retrospektiv informasiya verir.

Viruslu antigenlərin aşkar olunması metodu da xüsüsi əhəmiyyət kəsb edir. Bu metod bioloji mayelərdə virusun aşkar olunmasına alternativ metod hesab olunur. Bununla yanaşı immunoflüoressent metod (həssaslıq 88%) istifadə olunur.

4.Viruslu genomun aşkar olunması metodu. Sonuncu yüksək dəqiqliyi ilə fərqlənir. Onun bir növü polimeraz zəncirvari reaksiyadır (PZR). Bu metod bioloji maye və toxumada virusun DNT-nin kəmiyyət və keyfiyyət baxımdan müayinəsini aparmağa imkan verir. Metodun üstünlüyü yüksək spesifikliyi (100%), həssaslığı (90-97%), müayinənin tez aparılması (bir neçə saat), virus konsentrasiyasının və infeksiya aktivliyinin təyin olnmasının mümkünlüyü, çoxlu sayda nümunələr olduqda skrininqlə istifadəsinin mümkün olmasıdır.

Əgər heç olmasa bir virus DNT-si olsa belə metod istənilən hüceyrədə virusu aşkar etməyə imkan verir. DNT konsentrasiyası həqiqi virus infeksiyasının etibarlı poqnostik markeri hesab olunur.

Mümkün hiperdiaqnostika nəzərə almaqla viruslu infeksiya ən azı iki metodla verifikasiya olunmalıdır. Viruslu və ya bakterail infeksiyalı qadınlarda əlavə müayinə metodlarına interferon statuslu hüceyrə və humoral immunitet parametrlərinin müayinəsi aiddir. Məlumdur ki. viruslu infeksiyalı qadınlarda immun çatışmamazlığı baş verir ki, bu vəziyyət hüceyrə bəndinin pozulması, monositomakrofal sinfindən olan immunkompetent hüceyrələrin zəifləməsi, eləcə də immun sistemdə tənzimləməsində qarşılıqlı əlaqənin pozulması baş verir. Məsələn, herpetik infeksiya zamanı T- limfositlərin (CD3+) mütləq tərkibinin azalması xarakterikdir, görünür, bu vəziyyət T- helperlərin (CD4+) nəzərəçarpacaq şəkildə azalması və B- limfostlərin tərkibinin artması hesabına baş verir.

Bətndaxili infeksiyalaşmanın proqnozlaşdırılması və diaqnostikası üçün iltihabəleyhinə sitokinlərin səviyyəsinin təyin olunması perspektiv hesab olunur. Qarışıq virus infeksiyalı qadında servikal kanalda selikli qişada 4 və 10 interleykinlərin tərkibinin artması döldə bətndaxili latent gedişatlı marker hesab olunur. Eyni zamanda servikal kanalın selikli qişasında və hüceyrələrində 4 və 10 interleykinlərin səviyyəsinin 250 pq/ml- dən aşağı olur, müayinə olunan qan zərdabında iltihabəleyhinə sitokinlərin olmaması diaqnostik test hesab olunur, bu vəziyyət aparılan terapiyanın effektivliyi haqqında informasiya verir.

Hamiləliyi planlaşdırılan cütlüklər öncədən bütün müayinələrdən keçməlidirlər. Bu zaman aşkar olunan patologiyaların heç bir ciddi fəsada səbəb olmadan müalicəsini vaxtında təyin etmək mümkün olur.

Beləliklə, mümkün viruslu və ya bakterial infeksiya riski olan cütlüklərin vaxtında kompleks müayinəsi, hamiləliyin vaxtında planlaşdırılması, həmin qrupdan olan hamilələrin mamalıq mərkəzlərinə erkən müraciət etməsi, müayinə alqoritmlərinə riayət olunması infeksion xəstəliklərin vaxtında aşkar olunmasına, ana və döldə ağırlaşmaları pronozlaşdırmağa, müalicə və profilaktika tədbirlərini aparmağa imkan verir. Həmin müayinə metodları analıq perianatal xəstəliyinin və ölümünün səviyyəsinin aşağı salınmasına imkan verir.

SUMMARY

THE MODERN DIAGNOSTIC METHODS OF VIRUS AND BACTERIAL INFECTION ON WOMEN TILL PREGNANCY AND DURING PREGNANCY

F.R.Hajiyeva

It was analyzed the modern diagnostic methods of virus and bacterial infection on women till pregnancy and during pregnancy. There were described algorithm and stages of diagnostic virus and bacterial infection on women.

Daxil olub:19.03.2010

ОБЩАЯ ХАРАКТЕРИСТИКА РАННЕЙ ДИАГНОСТИКИ ЗАБОЛЕВАНИЙ С ИСПОЛЬЗОВАНИЕМ ЭЛИ – ТЕСТОВ

Д.Ф. Курбанова, Х.С. Идрисова., А.В. Гамидова, Т.Г. Ахундова

Научно-исследовательский институт акушерства и гинекологии Министерство Здравоохранения Азербайджанской Республики г.Баку

Сегодня медицина научилась не только лечить явные заболевания, когда пациент приходит с «готовыми» симптомами, но и обнаруживать патологию на стадиях, невидимых, скажем, при УЗИ, ЭКГ или МРТ. Отныне медики пытаются подавить зарождающуюся болезнь даже при отсутствии ее признаков. Такими возможностями обладает превентивная, или прогностическая, медицина, применяющая совершенно новые методы диагностики организма [3].

Суть этих технологий в том, что в крови человека исследуется содержание аутоантител. Учеными установлено, что даже на начальных стадиях болезни концентрация этих частиц

заметно возрастает. Они начинают вырабатываться задолго до того, как человек почувствует первое недомогание.

К счастью, предсказать развитие заболевания задолго до его первых признаков позволяет иммунная система, которая содержит «образ» индивидуального организма, записанный при помощи набора антител к собственным органам и тканям. Она осуществляет постоянный мониторинг молекулярного состава тела и, если выявляет нарушения, запускает работу механизмов коррекции [2,6].

Концепция такого иммунного гомункулуса была выдвинута в 1989 году израильским профессором Ируном Коэном из Института Вейцмана. Александр Полетаев развил и дополнил ее, выявив, что в организме здорового человека образуется огромное количество естественных аутоантител к белкам всех органов и тканей. Причем оно мало зависит от пола и возраста и отличается редким постоянством. Исследователь назвал этот набор аутоантител «иммункулусом» (гибрид «гомункулуса» и «иммунитета»). Дело в том, что возникновение патологических процессов сопровождается изменениями количества антител, которые, что очень важно, можно обнаружить за десятилетия до проявления самой болезни. Это даёт в руки врачам тонкий инструмент для ранней диагностики многих заболеваний [10,15,11].

Первыми из медицинских специалистов оценили изобретение «иммункулуса» акушеры. Так как на 50% генетический материал ребёнка является для матери чужеродным и должен вызывать отторжение. Поэтому нормальная работа иммунных механизмов регуляции развития беременности является одним из основных условий благополучного её протекания [1,3,5].

Судить о состоянии этих механизмов позволяет специализированный метод выявления антител ЭЛИ-П-комплекс (ЭЛИ-тест для беременных), который выявляет нарушения в организме матери, опасные для ребёнка, что позволяет вовремя принять меры [2,4].

У всех здоровых людей независимо от пола и возраста ежедневно вырабатывается примерно одинаковое количество аутоантител. Аутоантитела печени, поджелудочной железы, легких и т.д выводят из организма продукты распада сотен миллионов отмерших клеток. И в сборе этого «мусора» и доставке его к месту утилизации (к печени) участвуют аутоантитела.У каждого органа или системы – свои «мусорщики» [5,7].

Как только начинается «поломка» на незаметном ещё, молекулярном уровне, клетки органа начинают усиленно отмирать. Потребность в «чистильщиках» увеличивается, и иммунная система начинает вырабатывать их в большом количестве. По мнению Полетаева, анализ крови на содержание аутоантител это фиксирует, и мы, таким образом, получаем информацию о том, на каком отрезке пути, ведущем к скорой болезни, находится человек.

Методика выявления антител ЭЛИ-П-комплекс успешно прошла четырехлетние клинические испытания в различных медицинских центрах. Пациентам сначала предсказывали болезнь, а потом отслеживали, что будет на самом деле.

Результаты получились настолько убедительными, что метод был наконец одобрен Минздавом Российской Федерации. «Подобные исследования ведутся в Израиле, Канаде, США, Англии, Италии, Германии, во Франции, в Бразилии и Австралии. Нашей конечной целью исследования является – внедрение тестов в широкую клиническую практику. Правда, не все люди готовы адекватно воспринять информацию о возможной грядущей болезни, и не все заболевания можно предупредить даже на таких ранних стадиях. И тем не менее есть ряд случаев, в которых, как доказала практика, ЭЛИ-тесты могут быть весьма своевременны и полезны [12,13,14].

По словам профессора Полетаева, один из впечатляющих результатов дает иммунодиагностика сахарного диабета – болезни очень распространенной, но предотвратимой. « Если есть стойкое повышение количества аутоантител поджелудочной железы, мы можем сказать: этот человек идет по дорожке, ведущей к диабету. Болезнь разовьется, когда погибнет 85% инсулин-продуцирующих клеток. И если сегодня у него погибло 30-40%, мы еще можем свернуть с опасного пути, оборвать ниточку развития недуга», - объясняет Александр Полетаев. То же и с ранним выявлением аритмий, склонности к тромбообразованию, болезней печени, легких и почек. Это новый уровень предсказательной профилактической медицины – когда лечат не болезнь, а состояние пред-болезни.

Метод ЭЛИ-П- Комплекс. Метод применяется для оценки сывороточного содержания ряда ауто-АТ, стойкие изменения продукции которых негативно влияют на наступление и развитие беременности. Выявляемые изменения служат прогностическими маркерами существенного повышения риска разного рода осложнений гестационного процесса (нарушения формирования и функционирования фетоплацентарного комплекса, нарушения нормального развития эмбриона и плода, и др.). Исследование ЭЛИ-П-Комплекс рекомендуется проводить у женщин, готовящихся к беременности (особенно лицам, имевшим акушерские осложнения в анамнезе) [1,2,4].

При выявлении тех или иных отклонений в показателях ЭЛИ-П- Комплекс, повторное исследование производится через 2-3 недели после окончания назначенных лечебно-профилактических мероприятий. Цель повторного исследования – подтвердить эффективность и достаточность проведенного лечения. Отсутствие позитивной динамики после проведенного лечения служит указанием на недостаточную эффективность использованной лечебной тактики и необходимость дополнительных мероприятий. Еще одно контрольное исследование рекомендуется проводить уже при наступившей беременности – в 1-2 триместре (на сроках беременности 8-15 недель). Это третье дополнительное исследование призвано подтвердить, что условия развития эмбриона и плода являются вполне благоприятными. [4]

Метод ЭЛИ-П-Комплекс позволяет оценить содержание естественных аутоантител (ауто-АТ) класса Ig G, характеризующихся эмбриотропной активностью, а именно к хорионическому гонадотропину (ХГЧ), белку MATEP (Maternal Antigen that Embryos Require), белку PAPP-A, пролактину, плацентарной изоформе белка S 100-p и основному белковому компоненту межклеточного матрикса – коллагену. Помимо исследования ЭЛИ-П-Комплекс , всем женщинам предлагается провести также исследование ЭЛИ-Висцеро-Тест – понятно, что выявляемые с его помощью сосудистые нарушения, нарушения углеводного обмена, нарушения со стороны щитовидной железы, нарушения продукции антиспермальных антител, антифосфолипидный синдром и т.д. могут весьма негативно отражаться на течении гестационного процесса. Поэтому, во избежание излишнего дублирования, из первоначального набора ЭЛИ-П- Комплекс были исключены такие антигены, как двухспиральная ДНК и фосфолипидсвязывающий b2 – гликопротеин1.

Трансплацентарное поступление к плоду избытка соответствующих ауто-АТ сопровождается эмбриотоксическими эффектами, негативно влияет на состояние фетоплацентарного комплекса и нарушает физиологическое течение гестационного процесса. Поэтому стойкое повышение продукции всех или многих ауто-АТ, определяемых с помощью метода ЭЛИ-П-Комплекс (поликлональная иммуноактивация) может стать причиной невынашивания беремнности, вести к фетоплацентарной недостаточности или вызывать пороки развития плода.

Стойкое избирательное существенное повышение продукции отдельных вариантов ауто-АТ, наблюдаемое в определенных условиях, также могут вести к весьма негативным последствиям. Например, избыток ауто-АТ к ХГЧ (маркерный признак анти-ХГЧ синдрома), часто является причиной функциональной недостаточности данного гормона. Понятно, что депривация организма беременной по ХГЧ будет сопровождаться нарушениями формирования плаценты со всеми вытекающими последствиями. Стойкое избирательное повышение продукции ауто-АТ к ХГЧ, как и ауто-АТ к пролактину, обычно наблюдается при некоторых эндокринопатиях. Патологические последствия избыточной продукции ауто-АТ к пролактину изучены пока недостаточны, однако имеются публикации, доказывающие связь между невынашиванием беременности и избытком ауто-АТ к пролактину.

Поступление к плоду избытка ауто-АТ к ДНК и фосфолипидсвязывающему b2-гликопротеину 1 проявляется эмбриотоксическими эффектами и часто ведет к прерыванию развития беременности. Повышение продукции таких ауто-АТ характерно для антифосфолипидного синдрома и, как правило указывает на наличие в организме женщины длительно существующих очагов активного воспаления, обычно инфекционного генеза (часто – в области малого таза, ЛОР- органах и др.). Стойкое повышение содержания таких ауто-АТ почти всегда сопровождается нарушениями параметров гемостазиограммы (коагулограммы), чаще всего- по типу гиперкоагуляции. Понятно, что такие ситуации требуют медикаментозного

вмешательства. Избыточное сывороточное содержание естественных антиспермальных ауто-АТ снижает фертильность и существенно повышает риск остановки развития эмбриона при проведении экстракорпорального оплодотворения (ЭКО). Механизмы этого феномена не вполне понятны и, возможно, связаны с экспрессией клетками раннего эмбриона белков сперматозоидов или сходных с ними антигенов [2,4,9].

Стойкое повышение содержания ауто-АТ к описанному в конце 90-х годов белку MATER (Maternal Antigen that Embryos Require), является фактором, ведущим к прерыванию развития эмбриона и его гибели на самых начальных этапах эмбриогенеза. Конкретные механизмы этого феномена, как и причины повышенной продукции ауто-АТ к белку MATER изучены пока недостаточно.

Стойкое повышение содержания ауто-АТ к белку PAPP-A часто сопровождается разнообразными нарушениями регуляции сосудистого тонуса. Конкретные механизмы этого феномена, как и причины повышенной продукции ауто-АТ к белку PAPP-A изучены пока недостаточно.

Стойкое повышение содержания ауто-АТ к основному белковому компоненту межклеточного матрикса- коллагену нередко отражает наличие у женщины тех или иных дефектов (обычно врожденных) соединительнотканного матрикса, может сопровождаться нарушениями регуляции тонуса матки и быть указанием на возможную слабость родовой деятельности.

Плацентарная изоформа белка S 100-p является регулятором программируемой гибели клеток эмбриона и плода (белки S 100, вместе с p53, является одним из ключевых регуляторов апоптоза). Кроме того, белки S 100 участвуют в регуляции созревания и направленной топической миграции нейробластов на этапах формирования нервной системы. В этой связи, как избыток, так и недостаток продукции и трансплацентарного поступления ауто-АТ к белку S100-p может вести к гибели эмбриона и плода или сопровождаться пороками развития. N.B: Характерно, что патологический подъем продукции ауто-АТ к белкам S100 могут вызывать многие варианты вирусов папилломы (вероятно, по механизмам молекулярной мимикрии). Подъем продукции и сывороточного содержания таких ауто-АТ резко увеличивает риск остановки развития беременности и приблизительно десятикратно повышает риск остановки развития беременности и приблизительно десятикратно повышает риск возникновения патологий развития нервной системы плода [4,9].

Отметим, что не только избыток, но и недостаточная продукция и снижение сывороточного содержания определяемых ауто-АТ также сопровождается эмбриотоксическими эффектами и нарушает физиологическое течение беременности. Это обуславливается участием естественных ауто-АТ в клиренсе организма беременной женщины и плода от продуктов естественного катаболизма. Понятно, что недостаточно эффективный клиренс будет сопровождаться избыточным накоплением токсических метаболитов в организме, что ведет к хронической постепенно нарастающей интоксикации, особенно пагубно связывающейся на незрелом организме плода. В этой связи отметим, что поликлональная иммуносупрессия является одной из наиболее частых причин остановок развития беременностей и привычных самопроизвольных выкидышей.

Характерно, что не менее чем 80-85% всех случаев гестозов развивается у беременных, на фоне выраженной поликлональной иммуносупрессий (по показателям ЭЛИ-П-Комплекс) на сроках гестации 18-24 недели.

Поликлональная иммуносупрессия как правило более чем в 90% случаев является следствием длительного существования в организме женщины условно-патогенной внутриклеточной инфекции вирусной и/или бактериальной природы [1,4].

Итак, длительные нарушения продукции разных эмбриотропных ауто-АТ могут препятствовать физиологическому развитию беременности, вызывать нарушения в организме плода, лежать в основе ряда форм бесплодия, обуславливать анэмбрионию и являться причиной привычного невынашивания беременности.

Методы ЭЛИ-тест позволяет обнаружить болезнь до ее клинических проявлений и вовремя принять превентивные меры. Таким образом, эта технология становится реальной научной основой для создания превентивной или профилактической медицины, которая позволила бы

резко повысить качество жизни населения при значительной оптимизации расходов на систему государственного здравоохранения.

ЛИТЕРАТУРА

1. Полетаев А.Б., Вабищев Н.К. – Состояние системы естественного аутоиммунитета у женщин фертильного возраста и риск нарушений развития эмбриона и плода. Вестник Росс. Ассоц. Акуш. И Гинекол., 1997, 4, 21-24

2. Полетаев А.Б. – Иммунофизиология и иммунопатология. М., МИА, 2008

3. Сухих Г.Т., Ванько Л.В. Иммунология беременности. М.: Изд-во РАМН,2003

4. Полетаев А.Б., Морозов С.Г., Ковалев И.Е. – Регуляторная метасистема (иммунонейроэндокринная регуляция гомеостаза). М., Медицина,2002

5. Мальцев С.В., Полетаев А.Б., Мансурова Г.Ш.- Диагностическое и прогностическое определение естественных аутоантител к почечным антигенам в развитии пиелонефрита у детей. Педиатрия., 2001

6. Черепанова Н.А. – Клиническое значение уровней регуляторных аутоантител для оценки риска развития гестоза. Канд.дисс.,Казань,2008

7. Хлыстова З.С. Становление системы иммуногенеза плода человека. М.: Медицина,1987.

8. Григорова Л.В. – Восстановление репродуктивного здоровья у больных с наружным генитальным эндометриозом, Канд.дисс., М.,2008

9. Макаров О.В., Осипова Н.А., Полетаев А.Б.- Клиническое значение аутоантител в диагностике заболеваний. Медицина XXI век, 2009,14,1,28-32

10. Stein J.H.(Ed). Internal Medicine,4 ed.,Mosby.,N.Y. – London.,1994

11. Talwar G.P. 1997 Fertility regulating and immunotherapeutic vaccines reaching human trials stage. Human Reproduction Update 3 301–310.

12. Hoek A., Schoemaker J., Drexhage H. A. Premature ovarian failure and ovarian autoimmunity. Endocrine Reviews, 1997, V. 18, No. 1, 107–135

13. Finkenzeller D., Fischer B., McLaughlin J., Schrewe H., Ledermann B., Zimmermann W.Trophoblast cell–specific carcinoembryonic antigen cell adhesion molecule 9 is not required for placental development or a positive putcome of allotypic pregnancies. Molecular and Cellular Biology, 2000, V. 20, No. 19, 7140–7145

14. Tong Z.B., Gold L., De Pol A., Vanevski K., Dorward H., Sena P., Palumbo C., Bondy C.A., Nelson L.M. Developmental expression and subcellular localization of mouse MATER, an oocyte–specific protein essential for early development. Endocrinology 2004, 145:1427–1434.

15. Scott J.S., Taylor P.V. – Congenital AV–block: Role of anti–Ro and anti–La antibodies. Springer–Semin. Immunopathol., 1989, 11, 4, 397–408

SUMMARY

THE GENIRAL CHARACTESTIC OF EARLY DIAGNOSTIC OF DISESASES USING ELI- TEST

D.F.Gurbanova, H.I.Idrisova, A.V.Hamidova, T.G. Akhundova

In review are presented qiven about usinq absolutely new method of the diaqnostics of the orqanism, qot name ELI-Tests. These methods allow, cominq from contents autoantibodies, valne and forecast the picture of health any person. Is it detail presented ELI-P-Complex, which is used for estimation of the condition reproduction function and allows to understand wich direct reason, leadinq to preqnancy loss, and to account of the purpose identical therapy, qreatly perfekt the results to preqnancy.

Daxil olub:12.04.2010

DİAQNOSTİK GÖSTƏRİCİLƏR: HƏSSASLIQ, SPESİFİKLİK, POZİTİV VƏ NEQATİV PROQNOSTİK SƏVİYYƏ, DİAQNOSTİK DƏQİQLİK

N.Y.Bayramov, A.S.Qədirova
Azərbaycan tibb univarsiteti, Bakı

Son illər təbabətdə yeni tibbi texnologiyalarının tətbiqi ilə yanaşı, subutlu təbabətin geniş yayılması və informasıyalar “bolluğu” yaranmışdır. Bu bilgilərin düzgün qiymətləndirilməsi, faydalı diaqnostika və müalicə üsulunun seçimi üçün obyektiv göstəricilərə və subutlu təbabətin prinsiplərinə əsaslanan nəticələrə ehtiyac vardır. Xüsusən də, həm yeni, həm də, mövcud diaqnostika üsullarının üstünlüyünü və ya əksikliyini elmi əsaslandırılmış şəkildə müqayisə etmək üçün bir çox göstəricilərdən istifadə edilməkdədir ki, bunlardan həssaslıq, spesifiklik, pozitiv və neqativ proqnostik səviyyələr və diaqnostik dəqiqlik geniş istifadə edilir [1,2,4]. Bu göstəricilərin mahiyyətini anlamaq və hesablanmasını bilmək gənc tədqiqatçılar üçün faydalı ola bilər.

Diaqnostika mahiyyətcə xəstəliyin axtarılıb tapılması və ya inkar edilməsidir. Bu prosesin ilk mərhələsində xəstəlikdən şübhələnilir, ikinci mərhələsində isə, xəstəlik təsdiq və ya inkar edilir. Hər iki diaqnostik mərhələdə də, simptomların olub-olmamasına əsaslanaraq xəstəliyin olub-olmaması müəyyən edilir (simptomdan xəstəliyə gedən yol). Hansı simptomu axtarmaq, hansı simptomun vasitəsi ilə diaqnozu dəqiqləşdirmək üçün, həm xəsətliklə simptom arasındakı, həm də, simptomla xəstəlik arasındakı əlaqəni qiymətləndirmək lazımdır [3].

Xəstəlik-simptom əlaqəsinin göstəriciləri təbii göstəricilərdir və ikidir: həssaslıq və spesifiklik. Simptom-xəstəlik əlaqəsinin göstəriciləri isə, təbii əlaqənin görüntüsü və praktikada tətbiqidir. Bu göstəricilərə pozitiv və neqativ proqnostik göstəricilər aiddir. Digər bir göstərici olan diaqnostik dəqiqlik isə, əlamətin ümümi diaqnostik əhəmiyyətini göstərir.

HƏSSASLIQ: Həssaslıq xəstəlik olduqda əlamətin hansı tezlikdə rast gəldiyini göstərir (xəstəliyin və simptomun var olduğu hallar).

Əlamətin həssalığı yüksəkdirsə, bu o deməkdir ki, xəstəlik bu əlamətlə çox biruzə verir. Bu təbii əlaqənin praktik əhəmiyyəti ondan ibarətdir ki, həssalığı yüksək olan əlamətlər xəstəliyə şübhə yaradır, olmaması isə, xəstəliyi inkar edə bilir.

Həssaslığı müəyyən etmək üçün cədvəl 1-ə nəzər yetirək. Cədvəl 1-də sütunlarda xəstəliyin olması və olmaması, sətirlərdə isə əlamətin olması və olmaması verilir. Xəstəlik olanlarda simtom da varsa, bunlara doğru müsbət (DMü), simptom yoxdursa yalan mənfi (YMə) deyilir. Xəstəlik olmayanlarda əlamət varsa bunlara yalan müsbət (YMü), əlamət olmyan hallara isə, doğru mənfi (DMə) deyilir. Həssaslığı təyin etmək üçün, xəstəliyi olanların neçəsində əlamətin rast gəldiyi faizlə hesablanır:

HƏSSASLIQ = 100% x DMü / (DMü+YMə) *[düstur 1]*

Cədvəl 1
Xəstəlik və əlamətin münasibətləri

	Xəstəlik var	Xəstəlik yoxdur
Əlamət var (müsbətdir)	Doğru müsbət	Yalan müsbət
Əlamət yoxdur (mənfidir)	Yalan mənfi	Doğru mənfi

SPESİFİKLİK: Spesifiklik, xəstəlik-əlamət əlaqəsinin ikinci təbii göstəricisidir, xəstəlik olmayanda əlamətin nə dərəcədə rast gəlmədiyini ifadə edir (xəstəlik yoxdursa, əlamət nə gədər yoxdur). Spesifiklik əlamətin xəstəliyə nə dərəcədə məxsus olduğunu göstərir və başqa xəstəliklərdə olub-olmadığını bildirir. Əgər spesifiklik yüksəkdirsə, əlamətin yalnız bu xəstəlikdə ortaya çıxdığını göstərir. Diaqnostikada bu o deməkdir ki, spesifikliyi yüksək olan əlamətin tapılması diaqnozu dəqiqləşdirir, 100% spesifikliyi olan simptoma patoqnomonik əlamət deyilir.

Spesifikliyi hesablamaq üçün xəstəliyi olmayanların neçəsində əlamətin rast gəlmədiyi faizlə hesablanır.

SPESİFİKLİK = 100% x DMə / (DMə+YMü) *[düstur 2]*

Həssaslıq və spesifiklik kimi iki təbii göstərici əsasında diaqnostikanın ilk sualına cavab tapılır— xəstəliyə diaqnoz qoymaq ücün hansı əlaməti axtarmaq lazımdır.

Əlamətin həm həssaslığı, həm də spesifikliyi yüksəkdirsə, bu əlaməti ilk növbədə axtarmaq lazımdır (Cədvəl 2). Çünki, bu əlamət həm çox rast gəlir, həm də diaqnozu dəqiqləşdirir (məsələn öd kisəsi daşının təyinində USM 98% həssaslıq və 96% spesifiklik göstərir). Ona görə USM bu xəstəlikdə ilk tövsiyə olunan müayinədir.

Həssaslığı və spesifikliyi aşağı olan əlaməti axtarmağa gərək yoxdur. Həssaslığı aşağı, spesifikliyi isə yüksək olan əlaməti axtarmaq ikinci planda tutulur.

Həssaslığı yüksək, spesifikliyi aşağı olan əlamətlər xəstəliyə şübhə yaradır, ançaq diaqnostikada faydalı deyil və bunlara ümumi və ya qeyri-spesifik əlamətlər deyilir (məsələn appendisitdə leykositoz).

POZİTİV PROQNOSTİK SƏVİYYƏ: İndi isə, "simptom-xəstəlik" əlaqəsinin göstəriciləri olan və bilavasitə diaqnostik əhəmiyyəti olan göstəricilərə - pozitiv və neqativ proqnostik

göstəricilərə baxaq. Bu göstəricilərin mahiyyəti əlamətə görə xəstəliyin olub-olmadığını ehtimal etməkdir.

Pozitiv proqnostik səviyyə (PPS), əlamət olduqda xəstəliyin olma ehtimalını göstərir (bu göstərici, spesifikliyin praktik əksidir). Pozitiv proqnostik səviyyə yüksəkdirsə, xəstəliyin olma ehtimalı da yüksəkdir. PPS hesablamaq üçün, əlamətin müsbət olduğu halların neçəsində xəstəliyin olduğu faizlə hesablanır (əlamət varsa xəstəlik nə dərəcədə var).

PPS = 100% x DMü / (DMü+YMü) *[düstur 3]*

NEQATİV PROQNOSTİK SƏVİYYƏ: Neqativ proqnostik səviyyə (NPS) əlamət olmadıqda xəstəliyin nə dərəcədə olmadığını göstərir. Bu göstərici həssaslığın praktik ifadəsidir və simptomun olmadığına görə xəstəliyi inkar etmə ehtimalını göstərir. NPS yüksəkdirsə, əlamət olmadıqda xəstəliyi inkar etmə ehtimalı da yüksəkdir.

Neqativ proqnostik səviyyəni hesablamaq üçün əlamətin olmadığı halların neçəsində xəstəliyin olmadığı faizlə təyin edilir (əlamət yoxsa xəstəlik nə dərəcədə yox).

NPS = 100% x DMə / (DMə+YMə) *[düstur 4]*

PPS və NPS kimi göstəricilərin diaqnostik əhəmiyyəti ondan ibarətdir ki, bunlar diaqnostik prosesdəki ikinci suala (birinci sual hansı əlaməti axtarmaq) cavab verirlər—xəstəliyi təsdiq və ya inkar etmək üçün əlaməti necə qiymətləndirməli?. PPS əlamətin varlığında xəstəliyi təsdiqləmə ehtimalını, NPS isə əlamətin yoxluğunda xəstəliyi inkar etmə imkanını göstərir (Cədvəl 2).

PPS və NPS-i yüksək olan əlamətlər diaqnostikada mühüm rol oynayır və diaqnozu dəqiqləşdirmədə önəmlidir (əlamət varsa xəstəlik var, yoxdursa yoxdur).

PPS və NPS-i aşağı olan əlamətin diaqnostik imkanı aşağıdır. PPS-i yüksək, NPS-i isə aşağı olan əlamətin diaqnostik imkanı o deməkdir ki, əlamət varsa xəstəlik var, lakin yoxdursa inkar edilmir.

Cədvəl 2

Əlamətin göstəricilərinin interpretasiyası

Həssaslıq və spesifiklik yüksək (PPS və NPS yüksək)	Bu əlamət, müayinə ilk axtarımalı Əlamət varsa xəstəlik də var, yoxdursa xəstəlik də yoxdur
Həssaslıq yüksək, spesifiklik aşağı (NPS yüksək, PPS aşağı)	Axtarış üçün tövsiyyə edilir, dəqiqləşdirmə üçün yox Yoxdursa xəstəlik inkar edilir, varsa xəstəlik var demək olmaz
Həssaslıq aşağı, spesifiklik yüksək (NPS aşağı, PPS yüksək)	Axtarış üçün tövsiyə edilmir, dəqiqləşdirmək üçün olar Varsa xəstəlik var deməkdir, yoxdursa xəstəlik yox demək olmaz
Həssaslıq və spesifiklik aşağı (NPS və PPS aşağı)	Diaqnostikada tövsiyyə edilmir

Cədvəl 3

Xoledox daşının təyinində müayinələrin nəticələri

Göstərici	Xoledox daşı olanlar (50)	Xoledox daşı olmayanlar (50)
USM-də daş var	26	2
MRXQ-da daş var	49	2
MRXQ-da yox	1	48
QQT-də artma var	46	20
QQT-də artma yox	4	30

PPS aşağı, lakin NPS-i yüksək olan əlamət onu göstərir ki, bu əlamət yoxdursa xəstəliyi inkar etmək olar, bu əlamət varsa xəstəliyi təsdiq etmək olmaz (yoxdursa yox demək olar, varsa var demək olmaz).

Diaqnostik dəqiqlik əlaməti ümümi cəhətdən xarakterizə edir və əlamətə görə nə dərəcədə doğru diaqnostik nəticə əldə edildiyini göstərir. Diaqnostik dəqiqliyi hesablamaq üçün butun doğru nəticələri.

Verilən göstəriciləri bir misal üzərində izah edək. Tutaq ki, 100 nəfər xəstədə xoledox daşına şübhə olmuşdur. Müayinələrin nəticəsində bunların 50 nəfərində daş tapılmış, 50 nəfərində isə xoledoxda daş olmamışdır. Bu xəstələrdə USM, MRXQ və QQT-in nəticələrini araşdıraq və müqaisə edək (Cədvəl 3).

Cədvəldən göründüyü kimi, USM daşı olan 50 nəfərdən 26-sında daş görünmüş (doğru müsbət), 24-ündə görünməmişdir (yalançı mənfi). Daşı olmayan xəstələrin 48-ində daş əlaməti görünməmiş (doğru mənfi), 2-sində isə daş əlaməti görünmüşdür (yalançı müsbət). Bu nəticələrə əsasən hesablamalar aparsaq (1,2,3 və 4 saylı düsturlarla) USM-in xoledox daşını təyin etmədə həssaslığı 52% [(100% 26):(26+24)], spesifikliyi 96% [(100% x 48):(48+2)], pozitiv proqnostik səviyyəsi 92,8% [(100% x 26):(26+2)], neqativ proqnostik səviyyəsi 66,6% [100% x 48):(48+24)], diaqnostik dəqiqliyi isə 74% [100% x (26+48):(50+50)] təşkil etmişdir. Anoloji qaydada MRXQ və QQT-nin göstəricilərini hesablasaq cədvəl 4-dəki nəticələr əldə edilir.

Cədvəl 4

USM, MRXQ və QQT-nin nəticələri

Göstərici	Həssaslıq	Spesifiklik	PPS	NPS	DD
USM	52%	96%	92,8%	66,6%	74%
MRXQ	98%	96%	96%	97,9%	97%
QQT	92%	60%	69,6%	88,2%	76%

Bu nəticələri təhlil etdikdə görünür ki, xoledox daşlarının təyinində USM-nin həssaslıq və NPS-i aşağıdır, spesifiklik və PPS-i isə yüksəkdir. Bu o deməkdir ki, USM xoledox daşını göstərməyə bilir, lakin göstərirsə daş olma ehtimalı yüksəkdir, (yəni, USM xoledoxda daşı göstərmirsə, yox demək olmaz, göstərirsə var demək olar). Başqa sözlə USM ilə daşı inkar etmək olmaz, ancaq təsdiq etmək olar. Ona görə də USM xoledox daşını inkar etmək üçün, dəqiqləşdirmək üçün və skrininq üçün tövsiyyə edilmir.

QQT isə yüksək həssaslıq və nisbətən yüksək NPS göstərmiş, lakin spesifikliyi və PPS-i aşağı olmuşdur. Bu o deməkdir ki, QQT xoledox daşına şübhəni artırır, lakin spesifiklik və PPS aşağı olduğu üçün daş olmama ehtimalı da yüksəkdir. Yəni, QQT xoledox daşında artmırsa, daş yox demək olar, lakin artırsa var demək olmaz. Başqa sözlə QQT xoledox daşını inkar etmək və skrininq üçün tətbiq oluna bilər, ançaq dəqiqləşdirmək üçün tövsiyə olunmur.

MRXQ-nin bütün göstəriciləri yüksəkdir. Bu o deməkdir ki, MRXQ daş göstərirsə var deməkdir, göstərmirsə yox deməkdir. Ona görə də MRXQ həm skrininq (yüksək həssaslıq və NPS), həm dəqiqləşdirmək (yüksək spesifiklik və PPS), həm də inkar etmək üçün (yüksək spesifiklik və NPS) tətbiq oluna bilər.

Xoledoxda daş axtarmaq üçün USM tövsiyyə edilməyəcək (həssaslığı aşağıdır).

Diaqnostikanın ilk etapında (şübhə etapı, daş axtarışı) QQT və MRXQ tövsiyə edilir. İkinci etapda (dəqiqləşdirmək üçün) isə QQT yox MRXQ tövsiyyə edilir, cünki MRXQ-nin həm həssaslığı, həm də spesifikliyi yüksəkdir, QQT-nin isə spesifikliyi aşağıdır. MRXQ ilə həm daşın olması (PPS), həm də inkarı (NPS) dəqiqləşir.

ƏDƏBİYYAT

1. Menke J. Diagnostic Accuracy of Multidetector CT in Acute Mesenteric Ischemia: Systematic Review and Meta-Analysis// Radiology, 2010, v.256(1), p.93-101

2. Duff K, Hobson VL, Beglinger LJ, O'Bryant SE. Diagnostic Accuracy of the RBANS in Mild Cognitive Impairment: Limitations on Assessing Milder Impairments// Arch Clin Neuropsychol., 2010, v.21, p.34-9

3. Baltzer PA, Yang F, Dietzel M, Herzog A et al. Sensitivity and specificity of unilateral edema on T2w-TSE sequences in MR-Mammography considering 974 histologically verified lesions// Breast J., 2010, v.16(3), p.233-9

4. Brewin CR, Fuchkan N, Huntley Z, Scragg P. Diagnostic accuracy of the Trauma Screening Questionnaire after the 2005 London bombings// J Trauma Stress. 2010. v.23(3), p.393-8

SUMMARY

DIAGNOSTIC INDICATIONS: SENSITIVITY, SPECIFICITY, POSITIVE AND NEGATIVE PROGNOSTIC LEVEL, DIAGNOSTIC PRECISION

N.Y.Bayramov, A.S.Qadirova

Diagnosis is essentially a finding of the disease or its negation. In the first stage the disease is suspected, while the second one either confirms or denies it. At the stage of diagnosis on the basis of the existence or absence of symptoms the presence or absence of a disease is determined (from symptoms to disease). To do this one must define the relationship between symptom and disease that is characterized by five parameters. Two of these indicators assess symptom of the disease (sensitivity, specificity), other two assess diseases in symptoms (PPS, NPS) and one is a general assessment (DD).

Daxil olub:27.04.2010

MÜNDƏRİCAT- ОГЛАВЛЕНИЕ

İCMALLAR- ОБЗОРЫ

Показатели врожденного иммунитета у здоровых взрослых жителей г.Баку
А.А.Кадырова, М.К.Мамедов, А.Э.Дадашева, А.А.Гулиева……..……3

Нефропатии, связанные с нарушением обмена цистина
Г.Г. Алекперова, Э.Р. Зейналова, М.С. Караханова……..6

Иммунодефициты инфекционной этиологии: феноменология, патогенетические типы и механизмы формирования
М.К.Мамедов, А.Э.Дадашева, А.А.Кадырова……10

Актуальность ранней диагностики воспалительных заболеваний органов малого таза в выборе метода лечения
С.С.Сафарова……13

Potensial patogen aktinomisetlərin tədqiqi
N.A. Ağayeva……17

Ətraf mühitin ekoloji vəziyyətinin reproduktiv sağlamlığa təsirinin aktual aspektləri
N.M. Kamilova, I.A.Sultanova, S.N.Məmmədova……..……20

ORİJİNAL MƏQALƏLƏR- ОРИГИНАЛЬНЫЕ СТАТЬИ

Klimakterik pozuntular zamanı bəzi müalicə- profilaktika tədbirlərinin tətbiqinin effektviliyi
M.İ.İsmayılova……..…….26

Ananın yaşından asılı anadangəlmə anomaliyaların nozoloji strukturu
P.M.Əliyeva…….29

Hamiləlik zamanı profilaktik müalicədən keçən endemik urlu hamilə qadınlarda hamiləliyin gedişi və doğuşun xüsusiyyətləri
R.İ. Hüseynova, F.K.Əliyeva…….32

Кишечно-респираторный симптомокомплекс при ротавирусной инфекции у детей
С.М. Касумова, Г.М. Гасангулиева……35

Неспецифические осложнения компрессионной скелротерапии
Т.А.Шамсадинская……40

Обоснование потребностей в ортопедической стоматологической помощи (на примере сотрудников Министерства Внутренних Дел)
К.К.Кафаров……43

Особенности физического развития девочек с физиологическим течением периода полового созревания
Л.А. Наджи, Э.М.Алиева……47

C-reaktiv protein, homosistein, lipoprotein (a) və fibrinogenin arterial hipertenziyanin ağırlaşma və fəsadlaşma riskində rolu
V.Ə. Əzizov, V.O.Qurbanov……..……50

Внематочная беременность, как причина материнской смертности

С.К.Багирова…….54
Hepatit E- praktik səhiyyə üçün mahiyyəti
E.V.Mallinikov, O.E.İsayeva, M.İ.Mixaylov…….58

Структура ювенильных артритов в Азербайдане
М.М. Алекперов, М.З.Гаралова……67

Skalpten girişli yüksek gerilim elektrik yaniği nedeniyle oluşan defektlerin fleplerle rekonstrüksiyon teknikleri – klinik deneyimlerimiz
R.İ.Kerimov……....71

Postnatal ontogenezdə sidik kisəsi vəzilərinin cinsi xüsusiyyətləri
G.A.Hüseynova……75

Результаты лучевой терапии больных раком пищевода
И.Г.Исаев, Л.Н.Аскерова……...……..78

Особенности коронарного кровотока у женщин с острым инфарктом миокарда в менопаузальном периоде
А.Б. Бахшалиев, Н.Т.Мамедова……...……81

Эффективность химиолучевой терапии больных раком носоглотки
И.Г.Исаев, Н.М.Аскеров, Р.Р. Казиева……..…..84

Sümük şişlərinin kompleks şüa diaqnostikasinda kompüter tomotrafiyanin rolu
Ə.T.Əmiraslanov, S.R. Nəcəfov……88

Оценка съемных зубных протезов из акриловых пластмасс у жителей субтропической зоны Азербайджанской Республики
А.М.Сафаров, А.А.Багиров, Г.О.Ширалиев……...91

Birinci doğuşlarda anadangəlmə anomaliyalarin nisbi riskinin xüsusiyyətləri
P.M. Əliyeva…….95

Miopiya ilə bağli əlilliklə assosiasiya olunan ömrün orta müddəti
N.M.Rüstəmova……98

Сравнительная характеристика состояния иммунной системы при различных методах аутотрансплантации фрагментов селезеночной ткани
А.Г.Аббасов, А.М.Рустам, Э.А.Алиев……..…101

Qarın boşluğu orqanlarının cərrahı xəstəliklərində sitokinlərin hemostaz sisteminə təsiri
M.Y. Nəsirov, T.A. Əhmədova, Z.İ.Rzayev……103

Вопросы вирусологии в научных исследованиях Азербайджанских онкологов
Н.А.Бахшалиева…….106

Выбор оперативной тактики в лечении ректовагинальных свищей у больных с недостаточностью анального сфинктера
С.Г.Султанова……109

Qismi konxa rezeksiyasi əməliyyati nəticələrinin akustik rinometriya ilə araşdirilmasi
S. Yusubov, E. Turan……111

К вопросу о количественной микроанатомической характеристике желез мочевого пузыря в постнатальном онтогенезе
Г.А.Гусейнова……..114

Protezləmədən sonra yaranan stomatitlərin etiologiyası, müalicəsi və profilaktikası
H.Ö.Şirəliyev ……119

Diş protezlənməsinin müasir aspektləri
N.Ö.Hiərliyev, F.R.Səfərəliyev……121

PRAKTİK HƏKİMƏ KÖMƏK- ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

Hamiləliyə qədər və hamiləlik zamanı viruslu və ya bakterial infeksiyalı qadınların müasir müayinə üsulları
F.R.Hacıyeva ……124

Общая характеристика ранней диагностики заболеваний с использованием Элип – тестов
Д.Ф. Курбанова, Х.С. Идрисова., А.В. Гамидова, Т.Г. Ахундова……..…126

Diaqnostik göstəricilər: həssasliq, spesifiklik, pozitiv və neqativ proqnostik səviyyə, diaqnostik dəqiqlik
N.Y.Bayramov, A.S.Qədirova……130

Çapa imzalanıb: 29.08.2010
Sayı 300. Həcmi 20,5 çap vərəqi
Formatı 60X841/8 əla növ kağız

AzTU- nun mətbəəsi, H. Cavid pr.25